Günəş Şərqdən doğur!

№ 43 (5324), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

6 mart 2021-ci il (şənbə)




## Daha 365 nəfərdə koronavirus aşkarlanıb

175 nəfər sağalıb, 3 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 365 yeni yoluxma faktı qeydə alınıb, 175 nəfər müalicə olunaraq sağalıb.

(Səh.4)

## Fəxrəddin Manafov xanımının məzarını ziyarət edib



**Xalq artisti Fəxrəddin Manafovun həyat yoldaşı Vahidə Sadıqovanın ölümündən 4 gün keçir.**

Aktyor mərhum xanımının məzarını ziyarət edib.

(Səh.4)

Günün içindən...





## "Ardıcıllıqla biz öz hədəflərimizə çatdıq"

İlham Əliyev: "Prezident seçkilərindən sonra ərazi bütövlüyümüzün bərpasını mən birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq"

**"YAP-ın VI qurultayından ötən üç il ölkəmiz və bölgəmiz üçün həlledici illər olub".** Bunu Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayındakı çıxışında söyləyib. Dövlət başçısı vurğulayıb ki, üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş verib və təbii ki, onların arasında ən mühümü ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq qələbənin qazanılmasıdır...

(səh.2)

# Mehriban Əliyeva YAP sədrinin birinci müavini təyin olunub



## Partiyada İcra Katibliyi ləğv edilərək əvəzinə Mərkəzi Aparat yaradılıb

**Dünən hakim Yeni Azərbaycan Partiyasının növbədənkənar VII qurultayı keçirilib.** Qurultayda Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev və Birinci vitse-prezident, partiya sədrinin müavini Mehriban Əliyeva da iştirak ediblər. Dövlət başçısı qurultayda videoformatda geniş məruzə ilə çıxış edib.

(səh.3)

## General Osman Ərbaş son nəfəsinə qədər Vətəni üçün çalışdı




# Başın sağ olsun, Türkiyə!

(səh.8)

## Mübariz Mənsimov şərti azadlığa buraxılıb

Ona xaricə getmək qadağası qoyulub

(səh.8)

## "Hər dəqiqə yanımızda bir əsgər şəhid olurdu"

Raqil Bayramov: "Çox zaman düşmənin silah-sursatını ələ keçirib onları öz silahları ilə məhv edirdik"

(səh.9)

## "Admiralın işimdə millimetrlik səhv tapması məni sarsıtdı"

Rafiq Əziz: "Bundan işlədiyim hər rəsm barədə daha da dərindən araşdırmalar etməyə başladım"

(səh.6)

## Pandemiya dövründə məişət zorakılığının artacağı gözlənilən idi

(səh.12)

# “Ardıcıllıqla biz öz hədəflərimizə çatdıq”

## İlham Əliyev: “Prezident seçkilərindən sonra ərazi bütövlüyümüzün bərpasını mən birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq”





*“YAP-ın VI qurultayından ötən üç il ölkəmiz və bölgəmiz üçün həlledici illər olub". Bunu Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayındakı çıxışında söyləyib. Dövlət başçısı vurğulayıb ki, üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş verib və təbii ki, onların arasında ən mühümü ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq qələbənin qazanılmasıdır:*

”Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədaləti bərpa etdi. Bizim şanlı qələbəmiz qürur mənbəyimizdir və bu gün bizim qələbəmiz dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr vurub, öz tarixi torpaqlarını işğalçılardan azad edib. Biz bu tarixi missiyanı yerinə yetirdik”.

**“Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik”**

**Prezident qeyd edib ki, son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarında Azərbaycan xalqının bu işğalla heç vaxt barışmayacağını deyib.** ”Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müxtəlif çıxışlarda, müsahibələrdə müharibədən əvvəl deyirdim ki, bizə yarımçıq hansısa sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi. Tarixi ədalətə cavab vermirdi və yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi və biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq”.

**“Ulu Öndərin müstəqilliklə bağlı qətiyyətli addımları xalq tərəfindən yüksək qiymətləndirilirdi”**

**Ölkə başçısı qeyd edib ki, digər önəmli amil Heydər Əliyevin Naxçıvan dövrü ilə bağlıdır.** Çünki o vaxt Naxçıvan həm Ermənistanın hücumlarına, eyni zamanda, ovaxtkı Azərbaycan rəhbərliyinin əsassız hücumlarına, təqiblərinə məruz qalırdı: ”Faktiki olaraq blokada şəraitində yaşayan respublika işıqsız, qazsız, susuz, heç bir maddi imkanı olmadan yaşayırdı və Heydər Əliyev amili burada əsas rol oynayırdı. Ermənilər nə qədər cəhd etsələr də, Naxçıvanda öz istəklərinə nail ola bilmədilər. Halbuki, Qarabağdan sonra onların növbəti hücum hədəfi Naxçıvan idi. Heydər Əliyev və onun ətrafında birləşmiş insanlar Naxçıvanı qoruya bildilər, düşməni yerinə oturtdular və orada sərhəddə gedən şiddətli döyüşlərdə qalib gəldilər. O vaxt Azərbaycan Respublikasında Sovet İttifaqının saxlanmasına dair referendum keçirilmişdi və bu referendumun nəticələri kobudcasına saxtalaşdırılmışdı. Sanki Azərbaycan xalqı müstəqillik istəmir, sanki Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşamaq istəyir. Bu, absurd idi. Çünki 20 Yanvar hadisələri hələ təzəcə baş vermişdi, Azərbaycana qarşı edilən ədalətsizlik, Dağlıq Qarabağdan və ondan sonra ətraf bölgələrdən azərbaycanlıların qovulması, Ermənistandan azərbaycanlıların qovulması - bütün bunlar Azərbaycan xalqının qəlbində yara kimi qalmışdı. Belə olan vəziyyətdə hansı vətənpərvər insan müstəqilliyin əleyhinə səs verə bilər? Yəni tam saxtalaşdırılmışdı. Ancaq Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev referendumun keçirilməsinə imkan verməmişdi. Bu, böyük cəsarət, qəhrəmanlıq tələb edən addım idi”.

**“Azərbaycanı çox böyük nüfuza və hörmətə malik ölkəyə çevirdik”**

**Prezident bəyan edib ki, biz beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik ölkəyə çevirdik:** ”Biz bütün işləri ardıcıllıqla edirik və əgər son 17 illik tariximizə nəzər salsaq görərik ki, qarşıya hədəflər qoyulurdu, hədəflər düzgün müəyyən edilirdi, biz bu hədəflərə çatırdıq və ondan sonra qarşımıza yeni hədəfləri qoyurduq. Beləliklə həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdik, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdik və əsas məsələmizi - ərazi bütövlüyümüzün bərpasını təmin etdik”.

**“Bizim təşəbbüsümüzlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirib”**

**Dövlət başçısı bəyan edib ki, biz reallıqlar yaradan ölkəyik, bizim təşəbbüsümüzlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirib:** ”Bu gün yeni bir vəziyyət yaranıb, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqlar yaradan ölkəyik və bundan əvvəlki dövrlərdə də bizim təşəbbüsümüzlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirib, əməkdaşlığın yeni formatlarını şərtləndirib. Eyni zamanda, bizim uğurlu enerji siyasətimiz, nəqliyyat siyasətimiz nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxarıb, eyni zamanda, bölgədə və geniş mənada Avrasiya bölgəsində yeni əməkdaşlıq formatlarını yaratdı. Bu gün bu layihələr ətrafında birləşən və bu layihələri bizimlə bərabər icra edən ölkələrin sayı artmaqdadır və bu, istər-istəməz bu ölkələr arasında, hətta əvvəlki dövrlərdə bir-biri ilə o qədər isti münasibətləri olmayan ölkələr arasında da əməkdaşlığı labüd edir”.

**“Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir”**

**Prezident vurğulayıb ki, bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir və bu islahatların çox böyük əhəmiyyəti var:** ”Son 3 il ərzində prezident və parlament seçkiləri keçirilib. Prezident və parlament seçkilərinin ölkəmizin müasir həyatında xüsusi yeri var. Xüsusilə nəzərə alsaq ki, prezident və parlament seçkilərində ölkəmizdə gedən islahatlar daha bir mərhələyə qədəm qoydu və bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir. Biz gündəlik həyatda, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görürük ki, bu islahatların çox böyük əhəmiyyəti var. Eyni zamanda, ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da bizim təşəbbüslərimizin, islahatlarımızın böyük rolu var”. Dövlət başçısı deyib ki, prezident seçkilərindən sonra bəyan etdiyi proqram icra edilir: ”Ardıcıllıqla biz öz hədəflərimizə çatırıq. Prezident seçkilərindən sonra ərazi bütövlüyümüzün bərpasını mən birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq. Eyni zamanda, siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı mübarizədə də açıq-aydın hədəflər qarşımıza qoyuldu və biz ardıcıllıqla və məqsədyönlü şəkildə bu hədəflərə çatırıq”.

**“Zəngəzur dəhlizi tarixi nailiyyətdir”**

“Biz müstəqilliyimizin 30 illiyini Qələbə qazanmış, Zəfər çalmış xalq kimi, dövlət kimi qeyd edəcəyik. Müstəqilliyimizin möhkəmləndirilməsi işində bundan sonra da fəaliyyət göstəriləcəkdir. Bu, əbədi prosesdir. Müstəqillik deyəndə təbii ki, mən real müstəqilliyi nəzərdə tuturam. Burada da Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, tam müstəqil şəkildə öz daxili, xarici siyasətini aparır, öz dostlarını özü seçir, heç kimin qabağında baş əymir, heç kimə hesabat vermir. Ancaq Azərbaycan xalqının iradəsi Prezident kimi mənim üçün əsas məsələdir”.

**Dövlət başçısının sözlərinə görə, son illərin tarixi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı öz müstəqil yolundan döndərə bilmədi:** ”Nə qədər cəhdlər göstərildi ki, bizi bu və ya digər avantüraya cəlb etsinlər, bizi təhrik etsinlər, hətta bəzi dost ölkələrlə bizim aramıza girsinlər. Bu cəhdlər çox olub. Sadəcə olaraq, geniş ictimaiyyət bundan xəbərsizdir. İstisna edilmir ki, bundan sonra da çox olacaq. Ancaq biz müstəqil siyasət apararaq bütün bu cəhdləri alt-üst edirik. Buna görə müstəqilliyin bundan sonra da möhkəmləndirilməsi işində partiyamız və bütün cəmiyyətimiz fəal olmalıdır.

Əlbəttə ki, biz dövlət müstəqilliyini əldə edəndə, - mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirdim, - müstəqilliyimiz şərti xarakter daşıyırdı”.

*Prezident İlham Əliyev qeyd edib ki, müstəqillikdən dörd ay sonra Ermənistan bizə qarşı Xocalı soyqırımını törətdi:* ”Müstəqillikdən yeddi ay sonra Şuşa və Laçın işğal altına düşdü. Yəni, müstəqilliyimizin ilk illəri faciəvi illər idi və biz müstəqilliyi tamamilə itirə bilərdik. İndi isə - 30 ildən sonra biz ərazi bütövlüyünü bərpa etmiş ölkə kimi, Ermənistanı məğlub etmiş ölkə kimi bu yubileyi qarşılayırıq. Müharibə ilə bağlı bəzi yerlərdə gedən müzakirələrdən görürəm deyirlər ki, biz yeddi rayonu azad etmişik. Elə deyil. Biz, eyni zamanda, Şuşanı azad etmişik, eyni zamanda, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Hadrut rayonunu tam azad etmişik. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Martuni, indiki Xocavənd rayonunun 50 faizdən çox hissəsini azad etmişik. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Mardakert, indiki Ağdərə rayonunun böyük hissəsini azad etmişik, o cümlədən Suqovuşan qəsəbəsini. Biz təkcə yeddi rayonu azad etməmişik. Daha çox ərazini azad etmişik və bu gün yaratdığımız reallıq artıq dünya tərəfindən qəbul edilir. Bir daha demək istəyirəm ki, bu reallığı biz yaratmışıq - güc hesabına, iradə hesabına, birlik hesabına”.

”Müharibənin nəticələrindən biri də əlbəttə ki, bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli Bəyanatda xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu, bizim növbəti tarixi uğurumuz olacaqdır.

Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olduq”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

**İsmayıl**

# Mehriban Əliyeva YAP sədrinin birinci müavini təyin olunub



## Partiyada İcra Katibliyi ləğv edilərək əvəzinə Mərkəzi Aparat yaradılıb

Dünən hakim Yeni Azərbaycan Partiyasının növbədənkənar VII qurultayı keçirilib. Qurultayda Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev və Birinci vitse-prezident, partiya sədrinin müavini Mehriban Əliyeva da iştirak ediblər. Dövlət başçısı qurultayda videoformatda geniş məruzə ilə çıxış edib.

Daha sonra Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində gördüyü işlər, qazanılmış uğurlar və qarşıda duran vəzifələrlə bağlı qurultay nümayəndələrinin çıxışları dinlənilib. Qurultayda yekun olaraq təşkilati məsələlər müzakirə edilib və bir sıra qərarlar alınıb. 6 partiyanın YAP-a birləşmək haqqında müraciətləri qəbul edilib. Azərbaycan Prezidenti İlham Əliyev növbəti dəfə yekdilliklə YAP-ın sədri seçilib. Hakim partiyasının sədr müavinləri də təyin olunub.

Təşkilatın yeni Nizamnaməsinə uyğun olaraq, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin əmri ilə Mehriban xanım Əliyeva partiya sədrinin birinci müavini, Əli Əhmədov partiya sədrinin müavini, Tahir Budaqov partiya sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri təyin edilib.

VII qurultayda partiyanın yeni İdarə Heyəti formalaşıb. Əvvəllər 20 nəfərdən ibarət olan İdarə Heyətinin tərkibi 40 nəfərə qaldırılıb. Hacıbala Abutalıbov, Akif Əlizadə, Əli Həsənov, Abel Məhərrəmov və Siyavuş Novruzov İdarə Heyətinin tərkibindən çıxarılıb.

Partiyada İcra Katibliyi ləğv edilərək əvəzinə Mərkəzi Aparat yaradılıb. Qurultayda partiyanın Nəzarət-Təftiş Komissiyası da formalaşıb və Qadınlar Şurasının sədri dəyişib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının sədri seçilib. Bundan əvvəl Qadınlar Şurasının sədri Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva idi. Arif Rəhimzadə isə YAP-ın yeni təsis edilmiş Veteranlar Şurasının sədri seçilib. Şura üzvlərinin sayı 35 nəfərdir. Veteranlar Şurası ləğv olunmuş Siyasi Şura əsasında yaradılıb.

**YAP İdarə Heyətinin yeni üzvü Cavid Osmanov bildirib ki, partiyada yeni Proqram hazırlanacaq.** Deputat qeyd edib ki, Prezident İlham Əliyev qarşıdakı 3 ay ərzində partiyanın yeni proqramının hazırlanmasını İdarə Heyətinin qarşısında bir vəzifə kimi qoyub.

**YAP rəsmisi, millət vəkili Aydın Mirzəzadə VII qurultayın müvəffəqiyyətlə başa çatdığını deyib.** Deputatın sözlərinə görə, cənab sədr İlham Əliyevin çıxışı həm ötən dövrə verilən qiymət, həm də gələcək dövr üçün partiyanın fəaliyyət proqramı idi: "6 siyasi partiyanın YAP-a birləşmək müraciəti partiyamızın yüksək nüfuzundan, həmin partiyaların daha güclü Azərbaycan uğrunda yapçılarla birgə fəaliyyət göstərmək istəyindən xəbər verir. Cənab İlham Əliyevin yenidən Yeni Azərbaycan Partiyasının sədri seçilməsi partiyanın onun rəhbərliyini yüksək qiymətləndirməsi, onun siyasi kursu ilə ölkənin qarşısında duran məsələlərin həllinə inamıdır. YAP cəmiyyətin ona olan etimadını doğrultdu və vətəndaşların problemlərinin həllində bundan sonra da fəal iştirak edəcəyi mesajını verdi".

**Partiyanın İdarə Heyətinin üzvü Azər Badamov da vurğulayıb ki, ona göstərilən etimadı öz fəaliyyəti ilə doğrultmağa çalışacaq. O qeyd edib ki, YAP-ın qurultayı çox işgüzar və layiqli şəkildə baş tutdu:** "Qurultayımız ölkə Prezidentinin iştirakı ilə keçirildi. Prezident qurultayda videoformatda çox geniş, əhatəli və məzmunlu şəkildə çıxış etdi. Həm ötən dövrdə keçilən yola toxundu, həm də qarşıdakı vəzifələr, hədəflər, perspektivlərlə bağlı fikirlərini səsləndirdi. Çıxışında həm də yeni çağırışlar, yeni tələblər vardı. Bildiyiniz kimi, ölkəmizdə illərdir ki, hər bir sahədə genişmiqyaslı islahatlar prosesi aparılır. Yeni Azərbaycan Partiyası da təbii ki, ölkənin ən güclü, bir saylı partiyası kimi, bu proseslərdə yaxından iştirak edir. Amma bununla belə, qarşıya qoyulan növbəti hədəflərə çatılmasında, yeni çağırışlara cavab verilməsində YAP daha da fəal rol almalı, ən əsası, ölkə Prezidentinin çağırışları ilə ayaqlaşmalıdır. Hesab edirəm ki, YAP yeni çağırışlara da zamanında cavab verəcək, qarşısına qoyulan bütün hədəflərə də çatacaq".

**İsmayıl**

## Hər işlə YAŞAT fondu məşğul ola bilməz

### Əgər şəhid ailəsi narazıdırsa, bu həmin rayon rəhbərliyi üçün üz qarası olmalıdır



**Təəssüf ki, şəhid və qazi ailələrinə hələ də lazımi qayğı göstərilmir. Artıq onların əzizləri bu barədə dövlət başçısına müraciət etməyə başlayıblar.**

Ağstafa rayon sakini, şəhid Elşən Piriyevin həyat yoldaşı Nazpəri Piriyeva da, nəhayət, ümid yerini Prezidentdə tapıb. Nazpəri xanım müraciətində aidiyyati qurumlardan heç birinin onunla maraqlanmadığını bildirib. Şəhid xanımı, həmçinin əlavə edib ki, Gürcüstan vətəndaşı olduğuna görə rəsmi nikaha girə bilməyib. Bu da bir sıra hallarda müvafiq qurumların əlində "bayraq" olur. Amma təəssüf. Çox təəssüf... Necə ola bilər ki, onların sayəsində qələbə sevinci yaşadığımız insanların ailələrinə etinasız yanaşaq?! Bunu nəinki bəndə, heç Allah da götürməz.

**Qarabağ müharibəsi qazisi Natiq Mehdiyev şəhid xanımının Prezidentə müraciətinə dair fikirlərini "Şərq"lə bölüşdü.** Onun sözlərinə görə, belə bir hal rayonun vəzifəli şəxsləri üçün üz qarası olmalıdır: "Vətən darda olanda hərbçilər, insan darda olanda Allah yada düşür. Vətən müharibəsi dövründə qəhrəman əsgər və zabitlərimiz həm vətənimizi, həm də arxa cəbhədəki insanlarımızı qorudular. Niyə savaş bitəndən sonra hərbçilərimiz unudulur?! Prezidentimizin təşəbbüsü ilə şəhid və qazi ailələrinə kömək məqsədilə YAŞAT fondu yaradıldı. Lakin müvafiq qurumlar məsuliyyəti boyunlarından atır və elə bilirlər ki, hər işlə YAŞAT fondu məşğul olmalıdır. Amma belə deyil. Əgər kənddə bir adam narazıdırsa, deməli, yerli sakinlərin hamısı, xüsusilə səlahiyyətli şəxslər qatildirlər".

**N.Mehdiyev, həmçinin dedi ki, bu günün sabahı da var:** "Ermənilərı hər birimiz tanıyırıq. Onlara etibar etmək olmaz. Sabah yeni müharibə başlaya bilər. İndi şəhid, qazi ailələrinə qayğı ilə yanaşmaq lazımdır ki, növbəti analoji hadisə zamanı onların qardaşları, qohumları vətəni müdafiə etsinlər".

**Kənan**

## Partiyaların sayının azalması yaxşı haldır

### Sərdar Cəlaloğlu: "Çünki ictimai rəydə çaşqınlıq yaranırdı, xaricdə bizə ikrahla baxırdılar"

**Azərbaycanda altı siyasi partiya Yeni Azərbaycan Partiyasına (YAP) qoşulub. Azərbaycan Xalq Demokratik Partiyası, Azərbaycan Kəndli Partiyası, Milli Qurtuluş Partiyası, Azərbaycan Yurddaş Partiyası, Azərbaycan Milli Hərəkat Partiyası və Azərbaycan Demokrat Sahibkarlar Partiyası YAP-a qoşulmaq üçün müraciət etmişdi. YAP-ın bu gün keçirilən VII qurultayında partiyaların müraciətinə baxılaraq, müsbət qərar qəbul edilib.**

Siyasilər bunu birmənalı qiymətləndirməyiblər. Bəziləri alqışlayıb, bəziləri isə xəyanət kimi dəyərləndiriblər. *Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu da məsələ barədə fikirlərini "Şərq"lə bölüşdü. Onun sözlərinə görə, bu, arzuolunandır:* "Hansı səviyyədə olmasından asılı olmayaraq bütün hallarda birləşmə ideyaları təqdirəlayiqdir. Onsuz da hamı bilir ki, ölkədəki partiyalardan çoxu formaldır. Onların əksəriyyətinin mövqeyi, bircə dənə belə olsun bəyanatı yoxdur. Yəni adları var, özləri isə... Görünür, hakimiyyətin apardığı siyasət həmin partiyaları həddindən artıq təmin edib. Dediyim kimi, partiyaların sayının azalması yaxşı haldır. Çünki ictimai rəydə çaşqınlıq yaranırdı, xaricdə bizə ikrahla baxırdılar. Əsas məsələ partiya sədrlərinin hansı şərtlər müqabilində bu addımı atmasıdır - onlar YAP-ın idarə heyətinə salınıblar, yoxsa ümumiyyətlə, partiyanı təhvil verib siyasətdən gediblər?".

**Kənan**

# Müharibə olsa, sərhədləri aşacaq

### "Kreml Qarabağda yeni savaşın başlanmasında maraqlı deyil"



*"Koçaryan bildirib ki, Ermənistanın başladacağı yeni qisas müharibəsi əlverişli geosiyasi vəziyyətdə baş verə bilər. Bədbəxt hələ də anlaya bilmir ki, ermənilər üçün əlverişli geosiyasi vəziyyət arxada qaldı".*

Bu sözləri Bakı Politoloqlar Klubunun sədri, siyasi elmlər namizədi Zaur Məmmədov özünün "Facebook" səhifəsində yazıb. Düşmən ölkədəki revanşist meyillər indi təkcə bizə yox, bütün dünyaya məlumdur. Müxalifətçilər, o cümlədən "Qarabağ klanı" hansısa qisasdan danışırlar. Özü də elə həvəslə söz açırlar ki, bəzən adamın inanmağı gəlir. Amma sonra düşünürsən, ermənilərin bacardıqları elə budur - sərsəm bəyanatlar vermək.

**Bu barədə daha ətraflı "Şərq"ə danışan Z.Məmmədovun fikrincə, hərbi əməliyyatların bərpası rəsmi İrəvanın ziyanına olacaq:** "Əslində Ermənistan siyasətçilərinin hər biri başa düşür ki, müharibə üçün münbit şərait yaranmayacaq. Onlar sadəcə öz xalqlarını aldadırlar. Və millətlər arasında yeni nifaq toxumu səpirlər. Lakin biz 200 il ərzində ermənilərin havadarlarının apardığı siyasəti məhv etdik. Daha yeni, tamamilə fərqli geosiyasi vəziyyət yaranıb. Əlbəttə, bundan sonra "erməni xəstəliyi" həmişə öz sözünü deyəcək. Düşmənlər revanş istəyəcək, "intiqam" arzusu ilə yaşayacaqlar. Amma istəklərinə nail ola bilməyəcəklər. Əgər savaş başlayarsa, bu dəfə hərbi əməliyyatlar Ermənistan sərhədlərindən o tərəfdə - tarixi Azərbaycan torpaqlarında gedəcək".

**Politoloq, həmçinin, Rusiyanın məsələyə münasibətindən də danışdı:**

"Kreml yeni savaşın başlanmasında maraqlı deyil. O, Qafqazda sabitlik istəyir. Düzdür, bəzilərinin fikrincə, müxalif qüvvələr Moskvanın marağı ilə işləyir. Amma bu özü də "erməni xəstəliyi"nin təzahürüdür. Ümumiyyətlə, "liberialistlər" və milliyyətçilər olmaqla indi Ermənistanda iki cəbhə var. İkincilər qisas almaq istəyirlər. Fəqət, etirazçıların sayının az olması xalqın yeni müharibədən qorxduğunu göstərir".

**Kənan**

# Nəsir İmanquliyev yad olundu

## Media nümayəndələri ictimai xadimin məzarını ziyarət ediblər





Dünən media nümayəndələri Əməkdar jurnalist və mədəniyyət işçisi, elmi-ictimai xadim Nəsir İmanquliyevin məzarını ziyarət ediblər. Onların sırasında Mətbuat Şurasının sədri Əflatun Amaşov, Bakı Dövlət Universitetinin professoru Cahangir Məmmədli, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Beynəlxalq Avrasiya Mətbuat fondunun rəhbəri Umud Mirzəyev, MŞ-nin sədr müavini Müşfiq Ələsgərli, "Xalq" qəzetinin məsul redaktoru Tahir Aydınoğlu da yer alıb.

Ə.Amaşov Nəsir İmanquliyevin məzarı başında çıxış edib. Və deyib ki, Nəsir müəllim hələ tələbəlik illərində "Kommunist", "Yeni yol" və "Gənc işçi" qəzetlərində çalışıb: "Müharibə zamanı "Döyüşən Krım " qəzetinin məsul katibi olub. SSR-də ilk qəzetlərdən sayılan "Bakı" və "Baku"nun yaradılmasında yaxından iştirak edib. Uzun müddət hər iki qəzetin baş redaktoru kimi fəaliyyət göstərib. Nəsir müəllim hər birimizin yaddaşında nümunəvi həyat yolu ilə qalıb və ideala çevrilib. O, sözün əsl mənasında ziyalı idi.

1939-cu ildə Mərkəzi Komitə erməni və gürcü dilinə müəyyən güzəştlərin qəbul olunması ilə bağlı qərar qəbul etdi. Lakin Azərbaycan dilinə güzəştlər yox idi. O zaman ziyalılarımız çox narahat oldular. Buna görə Moskva "Yeni yol" qəzetini bağladı. Nəsir müəllim də o zaman "Yeni yol"da çalışırdı.

O, etiraz olaraq Azərbaycan rəhbərliyinə məktub göndərdi və şəxsən bunu Azərbaycan dilinə basqı kimi dəyərləndirdi. Repressiya dönəmində Nəsir müəllim belə cürətli addım atdı. Ruhu şad olsun, onun xatirəsi bizim üçün əbədidir. Nəsir müəllim bizim üçün kişilik və ziyalılıq məktəbidir".

**Professor C.Məmmədli isə Nəsir İmanquliyevin onun müəllimi olduğunu söyləyib:** "Jurnalistika fakültəsində bizim xoşbəxtliyimiz Nəsir müəllimdən dərs almaq idi. O, həm nəzəri, həm də praktiki cəhətdən bizi ovcunda saxlayardı. İstedadlı tələbələri "Bakı" qəzetində işə dəvət edirdi. Nəsir müəllim fakültəmizin brendi idi. İki müəllimim var: Şirməmməd Hüseynov və Nəsir İmanquliyev. Onlar bizə daim qayğı göstəriblər. Ruhları şad olsun".

Digər mətbuat nümayəndələri də Nəsir İmanquliyev haqqında danışıblar və onun ruhuna dualar oxuyublar.

*Ziyalılar, həmçinin görkəmli alim və mətbuat tədqiqatçısı Şirməmməd Hüseynovu da ziyarət ediblər.*

**Samirə Ərəblinski**

## YAP-ın yeniləşməsi təqdir olundu

### Xeyrəddin Qoca və Vüqar Rəhimzadə partiyadakı dəyişiklikləri müsbət qiymətləndirib





**Dünən Yeni Azərbaycan Partiyasının (YAP) yeddinci qurultayı keçirilib. Qurultayda bir neçə partiyanın YAP-a birləşməsi qərarına baxılıb. Həmçinin təşkilatın İdarə Heyətinin tərkibi də yenilənib.**

Qeyd edək ki, yeni İdarə Heyətinin üzvlərinin sayı 40 nəfərdən ibarətdir.

**YAP-ın yaradıcılarından olan yazıçı, publisist Xeyrəddin Qoca "Şərq"ə qurultayda iştirak etdiyini söyləyib:** "Bir az olar ki, qurultaydan çıxdım. Cənab Prezident çıxış etdi, mühüm məsələlər müzakirə olundu. Eyni zamanda İkinci Qarabağ müharibəsində əldə etdiyimiz nailiyyətlərdən danışdıq. İlk dəfə idi ki, Veteranlar Şurası yaradıldı və bu Şuraya da üzvlər seçildi. YAP-dakı dəyişikliklər çox mühüm idi".

**Qurultayda qəbul edilən yeni qərarları "Şərq"ə dəyərləndirən "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə isə qurultayda iştirak etmədiyini bildirib:** "YAP-dakı yeni dəyişiklikləri çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu dəyişikliklər partiyanın çevik idarəçilik sisteminə mühüm töhfələr verəcək. Yeni yaradılan heyət və müvafiq qərarların verilməsi çox vacib və lazımlı idi".

**Yeganə Bayramova**

## Fəxrəddin Manafov xanımının məzarını ziyarət edib




**Xalq artisti Fəxrəddin Manafovun həyat yoldaşı Vahidə Sadıqovanın ölümündən 4 gün keçir.**

Aktyor mərhum xanımının məzarını ziyarət edib.

*Qeyd edək ki, V.Sadıqova xərçəngdən əziyyət çəkirdi. O, uzun müddət müalicə olunsa da həkimlər xilas edə bilməyib. V.Sadıqova Azərbaycan dövlət televiziyasında diktor çalışıb.*

## Daha 365 nəfərdə koronavirus aşkarlanıb

### 175 nəfər sağalıb, 3 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 365 yeni yoluxma faktı qeydə alınıb, 175 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 236012 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 229442 nəfər müalicə olunaraq sağalıb, 3235 nəfər vəfat edib, aktiv xəstə sayı 3335 nəfərdir.

*Ölkədə son sutka ərzində 7779, hazırkı dövrədək isə 2635770 test aparılıb.*

# Bakı hələ səbrli davranır

## Tehran Azərbaycanın düşmənləri ilə əməkdaşlığını davam etdirsə nəticəsi çox ağır olacaq

İran Məsləhət Şurasının katibi Möhsün Rzayi ölkəsini Qarabağda atəşkəsə nəzarət və bərpa işləri üzrə komitənin üzvü olmağa çağırıb. Martın 1-də Qum şəhərində Qarabağın işğaldan azad olunması münasibətilə toplantıda çıxış edən Rzayi faktiki olaraq, İran silahlı qüvvələrini Qarabağa göndərmək ideasını irəli sürüb.



Öz çıxışında həm də İsrailə qarşı bəyanatlar səsləndirən Möhsün Rzayi deyib ki, İran Dağlıq Qarabağa girməli, onun yenidənqurma işində rol oynamalı, atəşkəs komitəsində iştirak etməli və Laçın dəhlizinə nəzarət işini öz əlinə almalıdır: "Bu gün Azərbaycan məsələsi bizim üçün təkcə qonşuluq məsələsi deyil.

Biz iki ölkədə yaşayan bir millətik və Azərbaycan bizim bir çox digər qonşularımızdan fərqlidir. Biz ortaq tarixi xüsusiyyətlərlə yanaşı, eyni mədəniyyətə və məzhəbə malik bir millətik. Hesab edirəm ki, İran İslam Respublikasının bu günə qədər yürütdüyü ən böyük səhvlərindən biri Azərbaycanı özü üçün qonşu ölkə saymasıdır. Halbuki, bizim millət Azərbaycanın rus çarlarının əlindən azad olunması uğrunda minlərlə şəhid verib".

Politoloq Sədrəddin Soltan bildirib ki, İranın Azərbaycan qaçqınlarına 43 milyon dollar yardım xərcləməsi ilə bağlı məlumat yanlışdır. Məcburi köçkünlər yalnız Araz çayını keçdikdən sonra Azərbaycan ərazisinə yola salınmışdı. Hətta onları İran ərazisində incitmişdilər. Bununla bağlı dəqiq faktlar var. Sonra İran Azərbaycanda məcburi köçkünlər üçün çadır şəhərciyi inşa edərkən jurnalistlərin, Azərbaycan dövlət rəsmilərinin həmin əraziyə daxil olmasına icazə vermirdi. Çadır düşərgələri bir növ İran hakimiyyətinin adamları tərəfindən qorunurdu. Bu yardımlar İranın "İmdad Xomeyni" cəmiyyəti tərəfindən həyata keçirilirdi. Sonralar bu qurum Azərbaycandan qovuldu və fəaliyyəti dayandırıldı. Möhsün Rzayinin çıxışına gəlincə, o, səlahiyyətlərini aşaraq Dağlıq Qarabağdakı ermənilərə muxtariyyət vəd edir. Yəni Rzayi özbaşına danışaraq Azərbaycanda hansısa bir etnik qrupa muxtariyyət vəd edir".

**"Tolerantlıq" Sosial Araşdırmalar İctimai Birliyinin sədri, politoloq Azər Rəşidoğlu da "Şərq"ə açıqlamasında vurğulayıb ki, İran siyasi rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsi və Azərbaycana yardımla bağlı bəyanatlarını səmimi hesab etmir:** "Sadəcə olaraq, İran əmin olmaq istəyir ki, Bakı anti-İran xarici siyasətinə qoşulacaq, ya qoşulmayacaq. Azərbaycanın praqmatik dövlət maraqları isə bu məsələdə neytral qalmağa üstünlük verir. Ancaq Tehran Azərbaycanın düşməni olan ölkə ilə əməkdaşlığa davam edərsə, rəsmi Bakının İrana sərt şəkildə münasibətlərin səbəbini soruşmaq haqqı var. Güman etmirəm ki, yaxın vaxtlarda Tehran Ermənistana yardımdan əl çəksin. Onu da unutmayaq ki, İranın Azərbaycana təsir imkanları yetərincədir. Vaxtilə İran İslam Respublikasının qurucusu ayətullah Xomeyni belə bir şüar ilə çıxış etmişdi - dünya şiələri birləşin! Bu şüar bugünədək İranın xarici siyasətinin göstəricilərindən biri kimi nəzərdən keçirilir. İran Azərbaycana təzyiq üçün hansı addımları ata bilər? Bu məsələ barədə bir qədər düşünmək lazım gəlir. Tehran rejiminin Azərbaycanla bağlı ən əsas silahının bəzi islam təmayüllü təşkilatları maliyyələşdirməsi sirr deyil, lakin bu qüvvələr yetərincə güclü deyillər və Azərbaycanda ictimai rəyə təsir imkanlarına malik deyillər. Buna baxmayaraq, İranın Azərbaycan dindarlarının bir qisminə təsir imkanları az deyil. Burada mötədil islamçıları da gözləmək yersiz görünür. Çox sadə bir həqiqətə görə - ac ölkədə yalnız siyasiləşmiş və radikal islam meydana çıxa bilər. İran hərbi baxımdan Azərbaycandan xeyli güclüdür, bu ölkənin 13 milyon hərbiçisi var. Əhalisinin sayı, büdcəsi də Azərbaycanla "haqq-hesab çürütməyə" imkan verir. Bir anlığa təsəvvür edək ki, Azərbaycan Qərbin dəstəyi ilə İranla açıq qarşıdurmaya gedir, situasiya İranın hərbi müdaxiləsi ilə sonuclanır. Bu baxımdan, İranla diplomatik dildə anlaşmaq zorundayıq".

**Yeganə Bayramova**

# 4 dəfə çevriliş cəhdi baş tutmayıb



## Paşinyanın hakimiyyətdə qalması indi Qərbin ona verəcəyi dəstəkdən asılıdır

“Paşinyan Ermənistan baş naziri kürsüsündən getsə, hakimiyyətə gələcək qüvvələr əldə edilmiş razılaşmaları pozmaqla buna mane ola bilər”. Bu iddia ilə ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza çıxış edib. Onun sözlərinə görə, Ermənistan hələ də məğlubiyyətin şokundadır: ”Qarabağdakı atəşkəsə dair 10 noyabr bəyanatı sülhün təməli ola bilər. Açıqlamalardan görünür ki, müzakirələr təməl prinsiplərə dair aparılıb. Halbuki, həmin razılaşma regional layihələr, o cümlədən Şərq-Qərb enerji dəhlizi çərçivəsində çox geniş imkanlar açır”. Brayza vurğulayıb ki, bütövlükdə regional layihələr həm Azərbaycanla Türkiyə, həm də iqtisadi ələqələrə daxil olmaq fürsəti qazanan Ermənistan üçün geniş imkanlar yaradır. Amma bunun üçün manеələr var: ”Ermənistan hələ də bu cür üçtərəfli format çərçivəsində əməkdaşlığın önəmini qavraya bilmir. Görünür, hələ şokdan ayılmayıb”.

**Sabiq amerikalı həmsədrin diqqət çəkdiyi məqamı ”Şərq”ə təhlil edən türkiyəli professor, ”Qafqaz” Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Hasan Oktay deyib ki, müharibə aylar öncə başa çatsa da, Ermənistanda sular durulmur.** Professorun sözlərinə görə, indiyədək Baş nazir Nikol Paşinyana qarşı 4 çevriliş cəhdi olub: ”İlk çevriliş cəhdi prezident Armen Sarksiyan tərəfindən reallaşıb. Sarkisyan Moskvaya səyahət zamanı Paşinyanın hakimiyyətdən getməsini istəyib və yerinə müvəqqəti keçid hökuməti qurulmasını təklif edib. Bu, baş nazirə qarşı ilk həmlə idi. Sonra müxalifət lideri Vazgen Manukyan etiraz aksiyaları ilə Paşinyanın istefasını tələb etdi. Ardınca kilsə xadimləri prosesə qoşuldu. Eçmiədzin (Üçkilsə -red) Antilyas papazları baş nazirə qarşı çıxdılar. Son olaraq Silahlı Qüvvələrin Baş Qərargah rəisi Qasparyan açıq şəkildə hökumət başçısına meydan oxudu. Ancaq Paşinyan bu həmlələrin hamısını dəf etməyi bacardı. Baş nazirə problem yaradan əsas məqam Rusiyaya məxsus ”İsgəndər” raketləri ilə bağlı çıxış idi. Paşinyan rus raketi üzərindən Qərbli müttəfiqlərinə mesaj verərək öz postunu qorumuş və mövqeyini sağlamlaşdırmışdı”.

H.Oktayın fikrincə, Paşinyanın hakimiyyətdə qalması 10 noyabr anlaşmasının davam etməsi deməkdir: ”Baş naziri müxalif Manukyan və ya ”Qarabağ klanı”na məxsus hansısa siyasətçi əvəzləsə, Qarabağda hərbi əməliyyatlar yenidən başlaya bilər. Daha təhlükəlisi isə erməni toplumunun azərbaycanlılara qarşı terror aktlarına sövq edilməsidir. Bunların baş verməməsi üçün Ermənistanda hökumət başında Paşinyan olmalıdır. Paşinyanın hakimiyyətdə qalması isə Qərbin ona verəcəyi dəstəklə bağlıdır. Türkiyə və Azərbaycanın Ermənistanla normal əməkdaşlığa nail olması Cənubi Qafqaz regionunda qalıcı sülhə şərait yarada bilər. Rusiya sülhməramlılarının 5 il sonra Qarabağdan gedəcəyi bəlli deyil. Əslində Kremlin davranışlarından görünən odur ki, Moskva Qarabağda daim öz nəzarətində olan qapalı bir bölgə yaratmaq niyyətindədir. Biz buna Ukraynada tətbiq olunan ”Donbas modeli” deyirik. Paşinyanın yerinə gələn hökumət düşünmədən bu modelə ”bəli” deyə bilər. Bu da bölgə üçün münaqişə qədər önəmli sıxıntı deməkdir. Nəzərə alaq ki, Azərbaycan işğal altındakı torpaqlarının önəmli hissəsini düşməndən azad etsə də, Qarabağda qeyri-müəyyən ərazilər qalmaqdadır. BMT-nin Təhlükəsizlik Şurasının 822-ci qətnaməsi sonadək icra olunmalı, Qarabağın bütün bölgələri Azərbaycanın nəzarətinə qayıtmalıdır”.

**İsmayıl Qocayev**



## Hərbi ekspert millət vəkili ilə razılaşır

### Orduya parlament nəzarəti müsbət addım olar

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc ordu quruculuğu və Silahlı Qüvvələrə nəzarət mexanizmləri ilə bağlı bir sıra təkliflər irəli sürüb. Ümumi fikir belədir ki, parlament orduya nəzarət etməlidir.**

Bəs belə bir dəyişiklik reallaşarsa, effektiv ola bilərmi?

**Sualımızı cavablandıran hərbi ekspert Ədalət Verdiyev ”Şərq”ə açıqlamasında millət vəkilinin təklifini müsbət qiymətləndirdiyini söyləyib:** ”İstənilən güc strukturuna nəzarətin olması mənfi hal hesab edilə bilməz. Lakin nəzarətin yerinə yetirilməsi üçün Parlamentdə hüquqi sənədlər qəbul olunmalı və Prezident tərəfindən təsdiq edilməlidir.

İstənilən qurum, o cümlədən Silahlı Qüvvələrin bütün növləri, Dövlət Sərhəd Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə Parlament nəzarətinin olması müsbət haldır”.

**Yeganə**

# Rusiya daha çox Paşinyana yol açacaq

## Ermənistandakı revanşist qüvvələr Kremlin maraqlarına cavab vermir

Bu gün Ermənistan müxalifəti baş nazir Nikol Paşinyanın istefası tələbi ilə növbəti mitinq keçirəcək. Bu barədə müxalifət partiyalarının birləşdiyi "Vətənin qurtuluşu hərəkatı"nın "Facebook" səhifəsində məlumat yayılıb. "6 mart saat 15:00-da Baqramyan prospektində "Vətənin qurtuluşu hərəkatı"nin mitinqi olacaq", - paylaşımda qeyd olunub. Ümumiyyətlə, bu gün Rusiya Ermənistanda vəziyyəti daha da gərginləşdirməkdə maraqlıdırmı? Vəziyyətin böhran səviyyəsinə gəlməsi Rusiyaya nəyi qazandıracaq?

**Suallarımızı cavablandıran politoloq Natiq Miri ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistan hakimiyyətində siyasi komanda monolit deyil.** Yəni burda da müxtəlif şəbəkələr və konkret müxtəlif korporativ maraqlar var: ”Hər bir halda Kremlin müxalif yöndə ciddi bir alternativ tapmadığı ortaya qoyulmaqdadır. Çünki ortada olan müxalif dairələr fikir verirsinizsə, Paşinyan hakimiyyətini devirdikləri təqdirdə cırtdan Ermənistanla nə edəcəyini bilmir. Ayrıca onlar Azərbaycana düşmənçilik və revanşist ritorikadan başqa erməni cəmiyyətinə heç nə vermirlər. Bu da açığı, tunelin o tərəfində erməni xalqına hər hansı bir işıq göstərmir. Məhz bunun nəticəsidir ki, artıq aylardı ki, Vazgen Manukyanın başçılığı altında 17 siyasi partiya 1500-2000-dən yuxarı erməninin küçələrə çıxarda bilmir. Yəni etiraz dalğası böyümür. Hansı ki, bu çıxanların içərisində demək olar ki, tən yarısı Qarabağdan qaçmış fərari ermənilərdir. Məsələ burasındadır ki, Paşinyanı əvəzləyə biləcək siyasi qüvvələr belə Ermənistanda yalnız dağıdıcılıqla məşğul olurlar ki, bu da gələcəkdə regionda yeni bir xaosa şərait yaradacaq. Təbii ki, Kreml də bunu hesablamamış deyil. Ona görə də artıq Rusiya ”Qarabağ klanı”ndan, eyni zamanda onları maliyyələşdirdiyi və prosesi tətiklədiyi, həm də müdafiə etdiyi digər müxalif qüvvələrin hakimiyyətə gəlməsi prosesini müvəqqəti olsa da dayandırıb. Bu gün Rusiya üçün lazım olan 10 noyabrda imzalanan bəyanatın tamamilə reallaşmasının mümkünlüyüdür”.



*Politoloq qeyd edib ki, bunun alternativi Ermənistanda xaos, regionda yeni bir savaşın çıxmasına gətirib çıxarda bilər:* ”Bu da Rusiyaya təbii ki, sərf etmir. Niyə? Çünki yeni bir savaş erməni dövlətçiliyini tamamilə yox edəcək. Həmçinin Azərbaycan Ordusunun qarşısında duruş gətirə biləcək Ermənistan ordusunun potensialı yoxdur və sıfıra bərabərdir. Ona görə də Ermənistan dövlətinin yoxa çıxması Rusiya dövləti üçün maraqlı ola bilməz. Bildiyimiz kimi, Ermənistan iki ən əsas türk dövlətçiliyi arasında süni yaradılmış bir maneədir. Bunun geosiyasi niyyətinin arxasında iki türk cümhuriyyətinin arasında əngəl olması məsələsi dayanır. Ayrıca həm də NATO-nun ən güclü ölkələrindən olan Türkiyənin qonşuluğunda, yəni cənub sərhədlərində Ermənistanın yerləşməsi Ermənistanı Rusiya üçün cəlbedici edir. Belə bir vəziyyətdə düşünmürəm ki, Rusiya öz geosiyasi maraqlarından artıq imtina etsin. Azərbaycanın Ermənistanı tamamilə darmadağın etməsi Qarabağda Azərbaycanın hegemoniyasını, ərazi bütövlüyünü birmənalı olaraq təmin edəcək. Bu da Rusiyanın həm Azərbaycanda, həm də regionda geosiyasi maraqlarına ziddir. Ona görə də Rusiya bu gün hansısa terror hadisələrini Ermənistanda törətməkdə maraqlı deyil. Əksinə, düşünürəm ki, bundan sonra Paşinyanın müəyyən mənada ictimai dəstəyi mövcud olacaq. Hansı ki, biz bunu Yerevanda keçirilən son mitinqdə də müşahidə etdik. Belə olduğu təqdirdə, Rusiya 10 noyabr bəyanatından irəli gələn bütün ağırlıqlı müddəaları məhz Paşinyan hökumətinin əli ilə həyata keçirməyə çalışacaq. Çünki bildiyiniz kimi, burada çox ağrılı məsələlər var ki, bu bir siyasi hakimiyyət üçün o qədər də xoş olmayan məsələlərdir. Yeni minlərlə erməni əsgərlərinin ölüsünün tapılmasından tutmuş, Ermənistana verilməsinə qədər, habelə Azərbaycanda olan erməni terrorçularının geriyə qaytarılması kimi bir sıra problemlər və ən nəhayət, erməni əsgərlərinin Qarabağda hərbi xidmət etməməsi kimi bir çox məsələlər var ki, bunu məhz Paşinyan hökumətinin əli ilə Rusiya həyata keçirməyə çalışacaq. Ona görə də indiki mərhələdə Ermənistanda kiberqarşıdurma, terror hadisələri gözlənilmir. Əksinə, Rusiya bundan sonra daha çox Paşinyana yol açacaq. İlk növbədə Rusiya regiondakı ”3+3” əməkdaşlıq platformasının həyata keçməsində maraqlıdır. Bildiyiniz kimi bu platforma eyni zamanda şimal-cənub nəqliyyat dəhlizini həyata keçirəcək. Rusiyadan başlayan yol Hindistana, Cənub Şərqi Asiyanın istənilən bir ölkəsinə qədər uzanacaq. Bunun iqtisadi dəhlizi özündə ehtiva etməsi Rusiyanın maraqlarına uyğun bir davranışdır”.

**Aynurə Pənahqızı**

# "Admiralın işimdə millimetrlik səhv tapması məni sarsıtdı"

## Rafiq Əziz: "Bundan işlədiyim hər rəsm barədə daha da dərindən araşdırmalar etməyə başladım"



Azərbaycanın Qarabağ qələbəsini gələcək nəsillərə çatdırmaq, şəhidlərimizin xatirəsini əbədi yaşatmaq üçün Azərbaycanın Əməkdar incəsənət xadimi, professor Rafiq Əziz tərəfindən Qarabağ xatirə sikkələri hazırlanıb. Qeyd edək ki, tarixə böyük marağı olan Rafiq Əzizin Türkiyənin hərbi muzeylərində yüzə yaxın imzalı əsəri yer almaqdadır. Bir çox sərgiyə ev sahibliyi edən rəssamın son sərgisi İstanbulun ən tarixi yerlərindən biri olan Üsküdar rayonunun "Nevməkan" binasında baş tutub.

"Sərgi İstanbul" mövzulu tədbirdə köhnə İstanbulu özündə əks etdirən əsərlər nümayiş etdirilib. Sənətkar, eyni zamanda, Türkiyənin hərbi akademiyaları, Dəniz Qüvvələri, Komandanlığı və qardaş ölkənin Xəzinə və Maliyyə Nazirliyi nəzdində Zərbxana və Möhür Mətbəəsi Baş İdarəsinin xətti ilə bir neçə simvolik pul vahidinin hazırlanmasında da yaxından iştirak edib. İlk dəfə 2013-cü ildə "Piri Rəisin Dünya Dəniz Xəritəsi çəkdiyi Kitabı-Bahriyənin 500 illiyi" münasibətilə hazırlanan pul vahidinin rəssamlığını edən sənətkar sonralar bir çox simvolik gümüş pulların da rəssamı olub. Hazırda fəaliyyətini İstanbulda davam etdirən Rafiq Əziz 2016-cı ildə Türkiyə Hərbi Muzeylərində yağlı boya ilə çəkilən 154 əsəri yer alan və Zərbxanada hazırlanan suvenir gümüş pulların rəssamı olaraq dünyada ilk və yeganə çağdaş rəssam kimi Ginnesin Rekordlar Kitabına daxil olub. 1995-ci ildə İstanbulda ilk rəssamlıq emalatxanasını açan rəssam 1996-cı ildən etibarən İstanbulun Yeditəpə Universitetində fəaliyyətini davam etdirib və hazırda bu ali təhsil müəssisəsinin görkəmli professorlarından biridir. Bu günə qədər Türkiyənin Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələri, hərbi akademiyaları olmaqla bir çox qurumlarının muzeylərin şəxsi fondunda rəssamın 200-dən artıq əsəri yer alıb və daim nümayiş etdirilir. Rafiq Əzizin yaratdığı Heydər Əliyev portreti İstanbul Beşiktaş Dəniz Muzeyinin Qızıl Fondundadır. Onun bir sıra sənət əsərləri, eləcə də Atatürk portretləri, Türkiyənin dövlət xadimlərinin iş otaqlarını bəzəyir. Rəssamın ən böyük əsərlərindən biri olan "1071 Malazgirt meydan müharibəsi" bu il fevralın 26-da doğum günü münasibətilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana hədiyyə edilib. Rəssam tərəfindən qardaş ölkə başçısına hədiyyə edilən əsərlərdən biri də Prezident Ərdoğanın anasının vəfatından sonra çəkilən portreti olub. Rafiq Əzizin təşəbbüsü ilə Türkiyə Zərbxanasında 2018-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi" və 2020-ci ildə Azərbaycanın Vətən müharibəsindəki şanlı Zəfəri münasibətilə "Qarabağ Azərbaycandır" simvolik gümüş pul vahidləri hazırlanıb. "Şərq" Azərbaycanın Əməkdar incəsənət xadimi, professor Rafiq Əziz ilə daha geniş söhbət aparıb:

**- Rafiq Əziz bəy, ilk olaraq bilmək istəyirik ki, belə bir təşəbbüs necə yarandı?**



- Azərbaycanın 44 günlük Vətən müharibəsinin tarixi qələbəsi ilə başa çatması hər bir azərbaycanlı kimi, mənim də həyatımın ən xoşbəxt və gözəl anlarından biri idi. Mən də bu günü bütün Azərbaycan vətəndaşı kimi səbirsizliklə gözləyirdim. Bu qələbə Müzəffər Ordumuz, Ali Baş Komandan İlham Əliyev və Azərbaycan xalqının dünyada misli görülməyən birliyinin təzahürü idi. Şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək və bu tarixi qələbəni əbədiləşdirmək üçün belə bir qərara gəldim. "Qarabağ Azərbaycandır" gümüş xatirə pulu buraxılması ilə əlaqədar olaraq İstanbul Zərbxana baş müdirliyinə təkliflə müraciət etdim. Çox sağ olsunlar, bu təklifimi böyük sevinc hissi ilə qarşıladılar. Baş Direktor Abdulla Şahin Yasir Zərbxana işçilərinə təcili tapşırıq verdi. Bildirdi ki, gecə-gündüz çalışıb bu pulu Rafiq Hocanın dediyi kimi, 24 dekabr 2020 tarixinə kimi yetişdirməliyik. Hətta qeyd etdilər ki, siz də bir peşəkar rəssam və professor kimi bizə əvvəlcədən xatirə pul basılması uyğun görüləcək bildiyiniz əlamət günləri bizə bildirin. Adətən zərbxanalarda bu cür pul vahidlərinin hazırlanması bir il əvvəldən planlaşdırılır. Lakin təklif və eskiz təqdim edildikdən sonra "Qarabağ Azərbaycandır" simvolik gümüş pulu növbə gözləmədən hazırlandı. Bunun üçün də türkiyəli qardaşlarımıza, eləcə də Zərbxana baş direktorluğuna xüsusi minnətdarlığımı bildirirəm. Pul vahidinin Prezidentimiz İlham Əliyevin doğum günündə hazır olması üçün əlimdən gələni etdim və buna nail oldum.













**- "Qarabağ Azərbaycandır" simvolik pul vahidinin neçə nüsxəsi var?**

- "Qarabağ Azərbaycandır" simvolik pul vahidinin iki nüsxəsi var. ("20 türk lirəsi" və "50 Azərbaycan manatı"). Onun Azərbaycan Prezidenti İlham Əliyevə çatdırılması üçün martın 3-də İstanbula səfəri zamanı Mədəniyyət naziri Anar Kərimova təqdim edilib. Qeyd edim ki, Azərbaycan variantında ön tərəf üzərində azərbaycanca yazılmış "Qarabağ Azərbaycandır" sözləri, həmçinin Azərbaycan Dövlət Gerbi, Azərbaycan xəritəsi, Yuxarı Gövhərağa məscidi, Şuşa qalası təsvirləri və üzərində də 1992-ci lə kimi kiril hərfləri ilə xatirələrimizə həkk olan "Şuşa" sözü yer alıb. Arxa üzündə Azərbaycan Respublikası, şəhidlərimizin rəmzi olan Xarıbülbül və 50 manat yazılıb. Lakin bu pul hələlik nümunə örnək kimi hazırlanıb. Türk variantının ön tərəfində isə türkcə "Karabağ Azerbaycandır" Azərbaycan gerbi və xəritəsi, Yuxarı Gövhərağa Məscidi, Şuşa qalası təsvirləri və arxa tərəfində Türkiyə Cümhuriyyəti və 20 TL yer alıb.

**"Qarabağ Azərbaycandır" simvolik pul vahidinin iki nüsxəsi var"**





**- Niyə ən çox Şuşa simvollarına üstünlük verilib?**

- Qarabağın bütün tarixi abidələri bir-birindən dəyərli və qiymətlidir. Lakin Şuşa təkcə Qarabağın deyil, bütün Azərbaycanın ürəyinin ən qiymətli parçasıdır. Gələcəkdə Şuşa Dünya Mədəniyyət və İncəsənət mərkəzi olacağını diqqətə alaraq və bütün dünyaya hörmətli Prezidentimiz İlham Əliyevin dediyi kimi, "Qarabağ Azərbaycandır!" olduğunun isbatı və sübutu olduğunu göstərmək idi.

**- Sizin bütün əsərlərinizin çox incəliklə işlənilməsi xüsusi diqqət çəkir...**

- Türkiyədə muzeylər üçün tarixi mövzulu rəsmlər çəkirdim. Çox böyük sevgi və həvəslə işlədiyim əsərimin birində bir admiralın yelkənin bağlı olduğu dirəkdə millimetrik səhv tapması məni dərindən sarsıtdı. Bundan sonra işlədiyim hər rəsm barədə daha da dərindən araşdırmalar etməyə başladım. Demək olar ki, yaratdığım hər bir əsər üçün məsuliyyət hissi dəfələrlə artdı. Əsərdə əks etdirdiyim dövrün hadisələrini, fiqurları, geyimləri, gəmi təsvirlərini doğru göstərmək üçün bir neçə tarixi kitab oxumalı oldum.

**- Ən çətin əseriniz hansı olub?**

- Ən çətin əsərim isə Osmanlı dövləti tarixinin ən tanınmış gəmiçilərindən biri, Osmanlı İmperatorluğunun ilk kapitan paşası və ya bugünkü adı ilə Dəniz Qüvvələri Komandiri Barbaros Hayrəddin Paşa və onun idarəçiliyində olan gəmilərlə bağlı idi. Bu tarixi şəxsiyyətlərin çoxunun əsl simalarını əks etdirən rəsmləri ümumiyyətlə yoxdur. Piri Rəisin Kadırqa gəmilərini isə onun şəxsi cızmaqaraları əsasında çəkdim. Rəsm çox çətinliklə ərsəyə gəlsə də çox böyük rezonansa səbəb oldu.

**- Hazırda Türkiyədəsiniz. Ora getməyinizin səbəbi nə ilə əlaqədardır?**

- Türkiyəyə gəlməyimin əsas səbəbi Xocalıdan olan uşaqlar üçün nə isə edə bilmək istəyimlə bağlı oldu. O zamanlar Azərbaycanda Təhsil Nazirliyinin şöbəsində işləyirdim, həm də müəllimlik edirdim. 1992-ci ildə Xocalı soyqırımı baş verdikdən sonra hər bir azərbaycanlı kimi, mən də Vətənim üçün nə isə etmək istədim. Uşaqlar arasında "Qarabağ müharibəsi uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsi kampaniyası başlatdım. Tale elə gətirdi ki, bu kampaniya zamanı çəkilən rəsmlər 1994-cü ildə ozamankı İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri, hazırda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilə İstanbulun "Taksim Sənət Qalereyası"nda nümayiş etdirildi. Sərgi qardaş ölkədə gözləmədiyim qədər böyük bir maraqla qarşılandı. 1992-ci ildə İstanbulda nümayiş olunan belə sərgilərdən birincisi bir çoxları kimi İstanbul Böyükşəhər Bələdiyyəsinin sabiq sədri, kökləri Azərbaycana dayanan Bədrəddin Dalanın da marağına səbəb oldu. Bədrəddin Dalan mənə Azərbaycanda baş verən hadisələrdən çox sarsıldığını və Qarabağ müharibəsi zamanı valideynlərini itirən on uşağın Türkiyədə təhsil almasına maddi dəstək göstərmək istədiyini bildirdi. O vaxt Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri idi və Qarabağdan olan bu uşaqların Türkiyəyə gətirilməsində mənə dəstək oldu. Ulu Öndər sonralar İstanbul səfəri zamanı bu uşaqlarla görüşdü. Uşaqları Türkiyəyə gətirdikdən sonra onlara cavabdeh şəxs olaraq Azərbaycanda iş yerimdən istefa edərək mən də İstanbula köçməli oldum. İllər keçdi və böyük bir məsuliyyəti öz üzərimə götürərək Türkiyəyə gətirdiyim bu uşaqlar orta və ali təhsillərini də çox yüksək səviyyədə tamamladılar. Hətta onlardan biri hazırda Türkiyə universitetlərindən birinin doktorantıdır.

**- Gözəl müsahibəniz üçün təşəkkür edirik.**

- Siz sağ olun.

**Aynurə Pənahqızı**



## İsrailli xanımın qazimizə dəyər verməsi bizi çox sevindirir

### Paşa Qəlbinur göz transplantasiyasından danışıb

**İsrailli qadın rəhmətə getmiş həyat yoldaşının gözünün buynuz qişasını Azərbaycan əsgərinə bağışlayıb.**

YAŞAT fondundan verilən məlumata görə, Vətən müharibəsi iştirakçısı, qazimiz Arif Hacıyev məhz bu xeyirxahlığın nəticəsində görmə qabiliyyətini bərpa edib.

**Göz transplantasiyası haqqında ”Şərq”ə danışan tanınmış oftalmoloq Paşa Qəlbinur qeyd edib ki, bu proses Azərbaycanda keçən əsrdən bəri mövcuddur:** ”Keratoplastika, yəni gözün buynuzlu qişasının köçürülməsi prosesinə keçən əsrin əvvəllərində Rusiyanın Odessa şəhərində dünya şöhrətli göz xəstəlikləri üzrə alim-akademik V.P. Filatovun xidmətləri və zəhməti əsasında başlanılıb. Həmin dövrdə, təxminən 1917-1920-ci illərdə professor Sona Vəlixan Azərbaycanda keratoplastika əməliyyatları keçirib və uzun illər bununla məşğul olub. Sona xanımdan sonra elmlər namizədi Bilqeyiz adlı bir xanım həmin əməliyyatları davam etdirib. Mən də 1982-ci ildən bu günə qədər keratoplastika əməliyyatı edirəm”.

**Paşa bəy həmçinin deyir ki, israilli bir xanımın bu cür hərəkəti bizi olduqca sevindirir:** ”İsrail dövləti müharibənin ilk günündən yanımızdq olaraq bildirmişdi ki, biz Azərbaycanla müharibə edən dövlətə silah satmarıq. Hazırda ordan gələn həkimlərin qazilərimizin müalicəsində iştirak etməsi bizi çox sevindirir. İsrail respublikasının dövlətimizə qarşı bu cür addımları bizim üçün çox dəyərlidir”.

**Aytac Ali**

# Açıq tipli tapşırıqlardan istifadə olunmayacaq

### Buraxılış imtahanının sadələşdirilməsi təhsil ekspertlərinin də ürəyincədir

Dövlət İmtahan Mərkəzi buraxılış imtahanlarını sadələşdirir. DİM bununla bağlı təkliflərini Nazirlər Kabinetinə göndərib. Söhbət ümumi - 9 illik orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün materialların məzmununda və təşkilində sadələşmə aparılmasından gedir. Mərkəz sadələşdirməyə bir neçə amili səbəb göstərir.



*“DİM-in irəli sürdüyü model mənim təklif etdiyim modeldir”*

DİM-in məlumatında qeyd olunur ki, 2020-ci il mart ayından etibarən ölkəmizdə COVID-19 pandemiyası ilə bağlı xüsusi karantin rejimi tətbiq edilir. Xüsusi karantin rejiminin qaydalarına uyğun olaraq hələ də ümumtəhsil müəssisələrində tədris prosesi tam olaraq ənənəvi qaydada həyata keçirilmir. Həmçinin ötən ilin sentyabr-noyabr aylarında baş vermiş Vətən müharibəsi müddətində bəzi bölgələrdə təlim-tədris prosesində müəyyən fasilələr yarandı. Bu amillər nəzərə alınaraq DİM tərəfindən Təhsil Nazirliyinin mütəxəssisləri ilə birgə razılıq əsasında mövcud vəziyyət nəzərə alınaraq ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün materialların məzmununda və təşkilində sadələşmə aparılması qərara alınıb. Nəzərdə tutulan dəyişikliklərlə bağlı məlumat 2020-ci ilin dekabrında ”Abituriyent” jurnalının xüsusi buraxılışında dərc olunub.

Jurnalda qeyd olunduğu kimi, proqramda əsas hissə kimi 5-ci sinifdən başlayaraq 9-cu sinfin 1-ci yarımilində keçilmiş materiallar götürülür. Tədris prosesində 2-ci yarımildə keçilməsi planlaşdırılan mövzular üzrə tapşırıqlar isə 5-8-ci siniflər üzrə tərtib olunacaq.

Proqram hazırlanarkən ilk növbədə indi 9-cu sinifdə təhsil alan şagirdlərin aşağı siniflərdə keçdikləri dərsliklərlə, hazırda istifadədə olan dərsliklər müqayisə olunmuş və hər iki dərslikdə eyni olan mövzular proqrama daxil edilmişdir. Aşağı sinif dərsliklərinə yeni daxil edilmiş və çıxarılmış mövzular proqrama salınmamışdır. Beləliklə, demək olar ki, proqramda verilmiş mövzuların hamısı tədris prosesində keçilənlərdir.

Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 498 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması Qaydaları”nda dəyişiklik edilməsi haqqında Nazirlər Kabinetinin 4 mart 2021-ci il tarixli qərarı ilə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanının bir mərhələdə keçirilməsi, imtahanda şagirdlərə tədris dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 25 olmaqla, ümumilikdə 85 tapşırığın verilməsi təsdiq edilib.

Xatırladırıq ki, Dövlət İmtahan Mərkəzi və Təhsil Nazirliyinin mütəxəssisləri hazırkı vəziyyəti bir daha təhlil edərək tapşırıqların formasını daha da sadələşdiriblər. Əvvəlcədən elan olunduğu kimi, ”Abituriyent” jurnalının xüsusi buraxılışında verilən modeldən fərqli olaraq yeni təqdim olunan imtahan modelinə əsasən, imtahanda yazılı cavab tələb edən açıq tipli tapşırıqlardan istifadə olunmayacaq. İmtahanda iştirakçılara qapalı tipli tapşırıqlar və kodlaşdırıla bilən seçim və hesablama formalı açıq tipli tapşırıqlar təqdim olunacaq.

**Təhsil eksperti, fəlsəfə doktoru Kamran Əsədov “Şərq”ə açıqlamasında buraxılış imtahanının sadələşdirilməsi təklifi ilə dəfələrlə çıxış etdiyini bildirdi:**

- Biz bu barədə bir neçə dəfə fikrimizi bildirmişik. DİM-in irəli sürdüyü model mənim təklif etdiyim modeldir. Dekabrın sonunda dərc edilmiş ”Abituriyent” jurnalında buraxılış imtahanı ilə bağlı təklif edilən model çətin idi, açıq və situasiya tipli suallara çox yer verilmişdi. Amma nəhayət ki, DİM buraxılış imtahanlarının sadələşdirilməsi təkliflərinə müsbət reaksiya verdi. Bu, məni sevindirir. Əlavə təklifim bundan ibarətdir: yaxşı olar ki, buraxılış imtahanı proqramına II yarımildən də suallar salınsın. Çünki 9-cu siniflər məktəbə gedir, əyani tədris prosesində iştirak edirlər artıq. Tədrisin II yarım ilindən sualların salınması uşaqların bu mövzuları daha yaxşı mənimsəməsinə kömək edər. Bir də buraxılış imtahanlarında hansısa səbəbdən iştirak edə bilməyənlərə əlavə şərait yaradılacağı barədə DİM-in açıqlaması yoxdur. Yaxşı olar ki, DİM bu məsələyə də aydınlıq gətirsin.

K.Əsədov 11-ci siniflər üçün buraxılış imtahanlarında dəyişiklik edilməsinə ehtiyac görmədiyini dedi: ”11-cilərin imtahanları onsuz da sadədir”.

**Məlahət Rzayeva**

# Çiçək satan çocuqlar...

### Onları ailələrinin maddi sıxıntıları işləməyə məcbur edir

Günümüzdə ailədaxili sıxıntılar səbəbindən hələ uşaq yaşlarından işləməyə məcbur xeyli uşaqlar var. Onlar əslində təhsil almalıdırlar, uşaqlıq həyatı yaşamalıdırlar.

Təəssüf ki, xeyli sayda azyaşlı var ki, məhz maddi sıxıntılar səbəbindən gül, salfet və s. xırdavatlar satmaqla ailəsini ayaqda saxlamağa çalışır.

Onlardan biri də şəkildə gördüyümüz bu oğlandır. Ailəsinin dolanışığına qatqısı olmaq üçün işləməyə məcbur olan oğlan əlinə fürsət düşən kimi oxumağa meyl edir, girdiyi mağazaların rəfindəki kitabları ən azından vərəqləyir. Sanki indidən anlayır ki, oxumaq hava-su kimi lazım olacaq. Nə yazıq ki, oxumağı, təhsili onun əlindən alıb əvəzində əlinə satmaq üçün gül veriblər.

Ağır həyat şəraitlərinə, çətinliklərə sinə gərən belə uşaqların sayı olduqca çoxdur. Onlar indinin təhsilsiz, uşaqlığını yaşaya bilməyən, yoldan ötənlərə çiçək satan mələkləri, gələcəyin isə əsgəridirlər...

**Mövzu ilə bağlı “Şərq”ə danışan sosioloq Elçin Bayramlı deyir ki, məsələ sırf ağır sosial vəziyyətlə bağlıdır:** ”Bu məsələ müəyyən tədbirlər görüldüyü üçün son illərdə səngimişdi. Amma axır vaxtlar yenə bu hallar artmaqda davam edir və əsasən, sosial vəziyyətin ağırlaşması ilə əlaqədardır. Ailələr təmin oluna bilmədiyindən uşaqlar məcbur olub bu cür işlərlə məşğul olurlar.



Müəyyən orqanlar, uşaq təşkilatları bu məsələlərlə məşğul olmalıdırlar. İki halda uşaqlar küçələrə düşürlər. Birincisi, kimsəsiz olanlar, ikincisi ailəsi olub bu işə məcbur olanlar. Aidiyyəti qurumlar bunu araşdırmalıdır. Kimsəsizdirsə uşaqlar evinə yerləşdirilməli, ailəsi varsa onların yaşayışı öyrənilməlidir.

Əsas faciə bu uşaqların təhsildən yayınması deyil. Faciə onların psixoloji sosial-mənəvi problemlərinin yaranmasındadır. Birincisi, həmin uşaqların psixologiyası pozulur. Onlar uşaqlığını yaşamaq əvəzinə işləməyə, çətinlik çəkməyə məcbur olurlar. Sağlamlığı ilə bağlı problem yaranır və s.

Bu qədər təşkilat və dövlət necə işləyir ki, bu uşaqlara yiyə çıxa bilmir? Onların sayı o qədər də çox deyil.

Bu məsələ yenə də uşaqpulu məsələsini yenidən aktuallaşdırır. Biz dəfələrlə bu məsələni qaldırmışıq. Demək olar ki, dünyanın hər yerində uşaqpulu verilir, təkcə bizdən başqa. Niyə verilmir, əsaslandıra da bilmirlər.

Kütləvi şəkildə bahalaşma olanda əlbəttə ki, ailələr uşaqlarını işlətməyə məcbur olacaqlar. Heç olmasa əvvəlcə uşaqpulunu aztəminatlı ailələrə verməlidirlər. Kim deyir ki, varlı ailələrə də versinlər o pulu?”

**Sosioloq yaşayış minimumunun az olmasının cinayətlərə səbəb olduğunu da qeyd etdi:** “Belə hallar nəinki uşaqların məcbur işlədilməsi, hətta cinayətlərə, oğurluğa da səbəb olur. İndi həyətlərində maşınların güzgülərini belə qırıb oğurlayırlar. Bunların hamısı sosial vəziyyətlə bağlıdır.

Uşaqların istismarının 99 faizi sosial məcburiyyətdən doğur.

İndi də əlillərin sosial müavinətini verməmək üçün bəhanə axtarırlar. Əl-ayağı olmayana belə doğru əlillik dərəcəsi yazmırlar. Belə halda əlbəttə ki, həmin əlilin uşağı küçədə işləməyə məcbur olacaq.

Biri var sahibsiz, qaraçı qismində olanlar. Amma o biri tərəf isə sırf sosial vəziyyətin ağırlaşması ilə bağlı məcburi hallardır.

Bunun qarşısını zorla almaq olmaz. Problemi həll etmək lazımdır”.

**Ağarza Elçinoğlu**






# Başın sağ olsun, Türkiyə!

## General Osman Ərbaş son nəfəsinə qədər Vətəni üçün çalışdı

Türkiyədə mart ayının 4-də hərbi helikopter qəzaya uğrayıb, ölən və yaralananlar var. Türkiyə Milli Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib ki, hərbi helikopter saat 13.55-də Bingöldən havaya qalxıb, məşum hadisə Bitlisin Tatvan vilayətində baş verib. Qəza nəticəsində 11 hərbçi şəhid olub, 2 nəfər isə yaralanıb.







Şəhadətə ucalanlar içərisində Türkiyə Silahlı Qüvvələrinin 8-ci Ordu Korpus Komandiri, general-leytenant Osman Ərbaş da var.

**"Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, şəhid generalın məmləkəti Yozqat yasa bürünüb. Şəhidin bacısı Hüsniyə Korana deyib ki, qardaşı daim Vətəni üçün çalışıb:** "Tək qardaşımız idi. Vətən sağ olsun. Allah düşmənlərimizə fürsət verməsin".

Şəhid general Yerköy vilayətinə bağlı Saray kəndində yaşayıb. Bacısı danışır ki, o, 17 yaşında kənddən ayrılıb: "Nə tətil bilirdi, nə məzuniyyət. Gecəsini gündüzünə qatırdı. Ana-ata həsrəti ilə yandı".

O.Ərbaşın doğma kəndinin bələdiyyə sədri Mustafa Qurd generalın axırıncı dəfə 10 ay əvvəl, anası Cəmilə Ərbaşın cənazəsi üçün Yerköyə gəldiyini söyləyib: "Uşaqlığımız birlikdə keçib. Orta məktəbdə eyni sinifdə oxuyurduq. Hərbi məktəbə qəbul olduqdan sonra Yozqatdan çıxdı. Amma əlaqəmiz heç kəsilmədi. Tez-tez danışırdıq. Biz onun Baş qərargah rəisi olmasını gözləyirdik, şəhid oldu. Çox kədərliyik".

Şəhid Ərbaşın doğulduğu 2 mərtəbəli tarixi evi göstərən M.Qurd deyib ki, o, 2007-ci ildə atasını, ötən il isə anasını itirib.

*Nədənsə, cənab Ərbaşın böyüdüyü evi görəndə bir cümlə keçdi qəlbimdən "Balaca evlərdə, böyük generallar yetişir". Hər halda Polad Həşimovu xatırladım. Türkün müqəddəs əsgərlərinin ruhları şad olsun.*

*Dərdiniz dərdimizdir, qardaşlar. Sizi bizdən yaxşı kimsə anlamaz.*

*Başımız sağ olsun!*

**Samirə Ərəblinski**



## Mübariz Mənsimov şərti azadlığa buraxılıb

### Ona xaricə getmək qadağası qoyulub

**Azərbaycanlı iş adamı Mübariz Mənsimov Qurbanoğlu, "FETÖ-yə bilərək kömək" etdiyi üçün 5 il həbs cəzasına məhkum edilmişdi.**

"Şərq" türk mətbuatına istinadən xəbər verir ki, məhkəmə nəticəsində sərbəst buraxılması qərara alınan Qurbanoğluna məhkəmə nəzarəti şərti ilə xaricə getmək qadağası qoyulub.

Məhkəmə əsnasında M. Mübarizin FETÖ lideri Fətullah Gülənin qardaşı oğlu Selman Gülen ilə əlaqədə olduğu və FETÖ-nün Rusiyadakı fəaliyyətinə görə, xaricə, o cümlədən Rusiyaya səyahət etdiyi barədə məlumatlarla bağlı açıq mənbəli araşdırmalar aparıldığı ifadə edilib.

*Qeyd edək ki, FETÖ-nün Rusiyadakı fəaliyyətinə və pul köçürmə yollarına görə, Selman Gülənin Dialoq-Avrasiya zabiti və Rusiyadakı agent olması ittihamı ilə deportasiya edildiyinə dair məlumatların əldə edildiyi də bildirilib.*

**Aygün**

# Koçaryan içindəki faşizmi açıq ifadə edir

## Belə bir zehniyyətin hakimiyyətə sahib olması bütün region üçün təhlükəlidir



Xəbər verdiyimiz kimi Ermənistanın keçmiş prezidenti Robert Koçaryan Rusiya KİV-ləri üçün keçirdiyi mətbuat konfransında Qarabağda müharibənin yenidən başlaya biləcəyini iddia edib. Koçaryan bildirib ki, Qarabağda ədalətsiz sülh yeni müharibəyə səbəb olacaq. Onun sözlərinə görə, müharibə ATƏT-in Minsk qrupunun deyil, Ermənistan rəhbərliyinin uğursuzluğu idi:

"İndi Minsk qrupuna ehtiyac var. Bu, Rusiyaya da sərfəlidir. Qarabağın statusu ilə bağlı danışıqlar prosesinin hansı istiqamətdə gedəcəyini söyləmək çətindir. Ancaq dünya təcrübəsi göstərir ki, ədalətsiz sülh uzun sürə bilməz". Koçaryan İkinci Dünya müharibəsinin ədalətsiz "Versal sülh müqaviləsi" üzündən baş verdiyinə diqqət çəkib: "Tərəflərdən biri müharibənin nəticəsi ilə razılaşmırsa, yeni müharibə gözləyin. Bu, əlverişli geosiyasi şərtlər olduqda baş verəcək. Siyasi həll yolu tapmaq lazımdır. Əgər Azərbaycan Qarabağ problemini həll etdiyinə inanırsa, hətta bu gün ən yaxşı mövqelərinə baxmayaraq demək olar ki, hər şey əksinədir".

**Sabiq prezidentin sərsəm bəyanatını "Şərq"ə dəyərləndirən VHP-nin Mərkəzi İcra Aparatının rəhbəri, politoloq Samir Əsədli bildirib ki, Koçaryanın son bəyanatı uzun illər Ermənistana rəhbərlik etmiş bir rejimin əsl mahiyyətini üzə çıxarır:** "Sivil dünyanın qəbul etdiyi ərazi bütövlüyünün bərpası niyə ədalətsizlik sayılmalıdır ki? İkinci Dünya müharibəsinin başlamasına haqq qazandırmaq bu şəxsin içindəki faşizmin açıq ifadə olunmasıdır. Dünya bunun fərqində olmalı və Azərbaycanın Xocalı soyqırımı ilə birgə anlatmaq istədiyi həqiqətləri dərk etməlidir. Qafqazda sülh və sabitlik istəyənlər birdəfəlik başa düşməlidir ki, belə bir zehniyyətin hakimiyyətə sahib olması bütün region üçün təhlükəlidir. O ki qaldı Koçaryanın müharibə təhdidlərinə, bu şəxs hələ özünə qarşı ittihamlara cavab versin, bəraət alsın, sonra öz xalqı adından danışar".

**S.Əsədlinin sözlərinə görə, 44 günlük müharibə həm xalqların döyüş əzmi, həm də orduların hərbi potensialı arasındakı fərqi ortaya qoydu:** "Erməni xalqı bunun fərqindədir və yeni müharibənin ermənilər üçün daha böyük fəlakətlərə yol açacağını gözəl bilirlər. Eyni zamanda son proseslər onu göstərir ki, Ermənistanda şovinist təbliğat fiaskoya uğramaqdadır. Erməni xalqı tədricən də olsa Qarabağ həqiqətini dərk etməkdədir. Düşmən ölkənin rəhbəri olsa da, Paşinyanın bir cəhətini etiraf edək ki, o, ölkəsini Rusiyanın forpostu olmaqdan qurtarmaq və mənasız ərazi iddiaları xülyasından qurtarmaq üçün ciddi islahatlara start verib. Koçaryan və onun komandası Kremldəki sahiblərinin sifarişini yerinə yetirir. Bundan başqa baş verənlərin heç bir izahı yoxdur".

**İsmayıl Qocayev**



# Azərbaycan Türkiyə ordusunun kiçik modelinə keçir

## *Bundan sonra da hərbi təlimlər davam edəcək*

**Azərbaycan hərbçiləri altı həftəlik təlim üçün Türkiyəyə gediblər. Bununla bağlı Türkiyə Milli Müdafiə Nazirliyi "Twitter" səhifəsində yazıb:**

"Can Azərbaycanla "Bir millət, iki dövlət" anlayışı ilə birlikdə çalışmağa davam edirik. 6 həftəlik komando təlimləri üçün İspartaya gələn Qəhrəman Azərbaycan Ordusundan olan qardaşlarımızı hava limanında qarşıladıq".

Məlumdur ki, bundan əvvəl də iki qardaş ölkə arasında birgə təlimlər keçirilmişdi. "Qars-2020" təlimləri Azərbaycan-Türkiyə dostluğunu bir daha bütün dünyaya göstərdi. Əlbəttə, budəfəki təcrübə mübadiləsi bütün dünyaya, o cümlədən bizi istəməyənlərə göz dağı olacaq.

**Türkiyəli hərbi ekspert, ehtiyatda olan general Osman Qazi Kandemir birgə təlimlərin əhəmiyyəti barədə "Şərq"ə danışdı:** "Əslində bizim ələqələrimiz həmişə, 1992-ci ildən üzü bəri olub. Azərbaycan zabitləri Türkiyədə, bizim gənclərimiz isə qardaş ölkədə təhsil alıblar. Hətta şəhid Aqşin İbadov mənim tələbəm olub.

Sadəcə, müstəqilliyin ilk illərində Azərbaycan həm Rusiya, həm də Türkiyə ilə hərbi əməkdaşlıq edir, belə demək mümkünsə, iki dövlət arasında gedib-gəlirdi.

İkinci Qarabağ müharibəsindən sonra isə rəsmi Bakı qəti qərar verdi. Prezident İlham Əliyev bildirdi ki, Türkiyə silahlı qüvvələrinin kiçik modelini yaratmaq lazımdır.

Beləliklə, birgə təlimlər başlandı. Bundan sonra oxşar təcrübə mübadilələri daha çox olacaq. Vətən müharibəsi bunun üçün zəmin, həlledici nöqtə rolunu oynadı.

Əlbəttə, birgə təlimlərin keçirilməsindən hər iki dövlət - həm Türkiyə, həm də Azərbaycan məmnundur".

**Kənan**



44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının yurd, torpaq sevgisinin, işğalçıya, düşmənə layiq olduğu dərsi verməyin örnəyidir. Xalq, Ali Baş Komandan və ordu birliyində reallaşan bu qələbə günümüzün qəhrəmanlıq salnaməsidir. Özgə torpağına, özgə malına göz dikməyin aqibətinin göstəricisidir. Hər cür vandalizmə, terrora köklənən və onu həyat kredosuna çevirən erməni vəhşiliyinin layiqli cavabıdır. Və o cavab qəhrəman Azərbaycan Ordusu tərəfindən layiqincə verildi.

# “Hər dəqiqə yanımızda bir əsgər şəhid olurdu”

## Raqil Bayramov: “Çox zaman düşmənin silah-sursatını ələ keçirib onları öz silahları ilə məhv edirdik”

Qırx dörd günlük müharibənin qəhrəmanlarından biri də qazi Raqil Əlibaba oğlu Bayramovdur. Raqil Bayramov Murov, Füzuli, Cəbrayıl və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. Bir dəfə yaralanan Bayramov sağaldıqdan sonra yenidən cəbhəyə yollanıb. Qazimiz müharibədə göstərdiyi qəhrəmanlığa görə baş leytenant rütbəsi alıb. Daha sonra isə Prezidentin sərəncamı ilə Füzuli, Cəbrayıl və Xocavənd uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə medallarla təltif edilib.

Raqil Bayramov 16 avqust 1988-ci ildə Azərbaycanın dilbər guşələrindən olan Lerik rayonunun Pirasora kəndində dünyaya göz açıb. Orta təhsilini doğulub boya-başa çatdığı Şəhid Azər Təhməzov adına Pirasora kənd məktəbində alıb. Azərbaycan Kooperasiya Universitetinin maliyyə-kredit fakültəsini bitirib. 2014-2015-ci illərdə Ağdam rayonundakı "N" saylı hərbi hissədə xidmətdə olub. Müdafiə Nazirliyinin Tədris Təlim Mərkəzində təhsil alaraq leytenant rütbəsinə yiyələnib.

Könüllü olaraq Qarabağ müharibəsinə yollanan Raqil Bayramovun döyüş yolu ilə bağlı onunla söhbətimizi sizlərə təqdim edirik.

**- Raqil bəy, Qarabağ müharibəsindəki iştirakınız və döyüş yolunuz barədə məlumat verməyinizi sizdən xahiş edirik.**

- Hərbi komissarlığa Aprel və Tovuz döyüşlərində könüllü iştirak etmək üçün müraciət etmişdim. İkinci Qarabağ müharibəsi başlayan zaman da yenidən könüllü yazıldım. Müharibənin ikinci günü hərbi komissarlığa çağırıldım, Gəncə şəhərindəki Əməliyyat taboruna (Kəşfiyyat) könüllü yazılandan bir gün sonra ön cəbhəyə - Murovdağa yollandım. Hərbi sirr olduğu üçün bu haqqda ətraflı məlumat verə bilməyəcəyəm. Yalnız onu deyə bilərəm ki, orada çox qalmadım. Bir neçə gündən sonra bizi Füzuli, Cəbrayıl və Xocavənd istiqamətində gedən döyüşlərə yolladılar. Orada bizə verilən ilk tapşırıq Veysəlli kəndini işğaldan azad etmək idi. Gecə qurulan planlar əsasında səhəri gün sübh tezdən kəndi işğaldan azad etdik. Növbəti tapşırıq Xocavənd rayonundakı 650 m-lik adsız yüksəkliyini və Füzuli rayonunun asfalt yolunu düşməndən azad etmək idi. Bizə gələn dəstəyin Xocavənd rayonuna daha rahat keçə bilməsi üçün həmin yolu mütləq azad etməliydik. Plan üzrə o yolu və yüksəkliyi də gecəikən düşməndən azad etdik. Sonra isə düşmənin arxasına keçdik və bir neçə kilometr irəlilədik. Çox çətin və uzun çəkən döyüşdə bizim tabor mühasirəyə düşdü. Düşmənin silahlı dəstəsinin bizə yaxınlaşdığını gördük. Doğrusu, mühasirəyə düşəcəyimizi gözləmirdik. Lakin buna baxmayaraq, qızğın döyüşlər nəticəsində, düşməni yerindəcə məhv elədik. Halbuki düşmən bizimlə döyüş vaxtı hava hücumundan başqa, hər cür silahdan istifadə edirdi.

*Noyabrın 4-də Xocavənd istiqamətində gedən döyüşlərdə mühasirəyə düşdükdəri zaman yaralanan Raqil Baramov bir müddət müalicə aldıqdan sonra yenidən cəbhəyə xidmətinə qayıdıb.*

**Müharibə zamanı necə oldu ki, yaralandınız. Xatırlayırsınızmı o anları?**

- Döyüşdə yaralanmaq, şəhid olmaq müharibənin yazılmamış qanunlarından biridir. Kimisi tank, kimisi minamyot qəlpəsi ilə yaralanırdı. Mənim də qismətimə snayperlə yaralanmaq düşdü. Məndə dörd daraqlıq güllə vardı, onun yarısından istifadə etmişdim. Düşündüm ki, düşmən yaxınlaşdıqca daraqdakı güllələr bitəcək, ona görə də üstümdə olan gülləni darağa doldurmaq lazımdır. Elə oldu ki, mən darağı çıxarıb gülləri ona yerləşdirmək istəyəndə qolumdan snayperlə vuruldum. Snayperlə yaralandıqdan sonra ilk olaraq məni Füzuli rayon Xəstəxanasına apardılar. Orada 2 həftə müalicə aldıqdan sonra Ucar rayon Xəstəxanasına, daha sonra isə Xocavənd rayonunda yerləşən Hərbi Hissənin Tibb Məntəqəsinə gətirdilər. Müalicəm başa çatdıqdan sonra xidmətimi davam etdirmək üçün əvvəlcə Xocavənd rayonuna, oradan isə Kəlbəcər rayonuna yollandım. O zaman artıq müharibə bitmiş, zəfər elan olunmuşdur. Məndən başqa tağımda yaralanan və şəhid olan əsgərlərimiz də var idi. İtkilərimizə baxmayaraq, hərbçilərimizdə ruh düşgünlüyü yox idi, hamımız bir nəfər kimi əlimizə silah alıb döyüşə davam edirdik. Bu dəfə də şəhidlərimiz, itkilərimiz oldu. Onların şəhid olarkən söylədikləri son sözləri, vəsiyyətləri, o anları sözlə ifadə etmək çox çətindir. Şəhidlərimizdən biri mənim əsgərim olmuş Mirxəyal Valeh oğlu Kərimzadə idi. Mən yaralanan zaman ilk tibbi yardımı o göstərmişdi. Sonra yanımda şəhid oldu. Doğrudur, şəhidlik hər insana nəsib olmur. Lakin, mənimlə birlikdə çiyin-çiyinə döyüşən əsgərimin gözümün önündə şəhid olmaşı mənə çox təsir etmişdi. Mən oradan təxliyə olunub qayıdanda Mirxəyalın nəşini özümlə gətirdim. Qardaşımla əlaqə saxladım və Mirxəyalın ailəsinə bildirdik ki, övladınız şəhid olub. Onu doğulduğu Lənkəran şəhərində dəfn etdik. Nə qədər acı olsa da, deyim ki, döyüş vaxtı hər saniyə, hər dəqiqə yanımızda bir əsgər şəhid olurdu. Bizim 4 qrupumuz var idi. Həmin qruplara nəzarət edən komandirimiz Səməd Hüseynov da həmin döyüşdə yaralandı. O, yaralı vəziyyətdə məni yanına çağırıb dedi: "Bu vəziyyətdə nə edə bilərik? Sənin fikrin nədir?".

Mən əlimlə bir göstərib dedim ki, "əsir düşməkdənsə özümüzü qumbara ilə partladaq, həm də bizimlə birlikdə bir neçə düşməni də məhv edək". Biz üç tağım komandiri hər zaman bir yerdə olurduq. Sabirabad rayonundan olan tağım komandiri Nurlan Zeynalov dedi: "Buradan geri dönüşümüz çox güman ki, olmayacaq. Əgər aramızda sağ qalanlar, qazilərimiz olarsa şəhid olan qardaşlarımızın məzarını ziyarət edib, əsgər salamı versin". Xocavənddə bizim taborda ilk şəhidimiz də elə Nurlan Zeynalov oldu. Füzuli rayonuna daxil olan zaman Fərid adlı bir əsgərimiz ürək nahiyyəsindən, digər bir əsgərimiz isə başından vuruldu.






Onu da deyim ki, çox zaman düşmənin silah-sursatını ələ keçirib onları öz silahları ilə məhv edirdik. Ermənilər yüz metrlik məsafədən bizə tanklardan atəş açıb qaçırdılar. Günlərlə ac qalırdıq, yorğun olurduq. Ancaq hər dəfə rayonlarımızın, kəndlərimizin işğaldan azad olunmas xəbərini eşidəndə bütün acılığımızı, susuzluğumuzu, yorğunluğumuzu unudurduq. Qələbə xəbərləri bizə ruh yüksəkliyi verirdi. Döyüş xatirələrim çoxdur, yalnız onlardan bir neçəsini sizinlə bölüşdüm.



**- Müharibədən sonra qazilərə cəmiyyət tərəfindən göstərilən münasibət barədə nə deyə bilərsiniz?**

- Haqq savaşımızdan sonra biz qazilərə çox böyük hörmət və ehtiram görürük. Onların sevgi və qayğılarını, dəstəklərini hər zaman üzərimizdə hiss edirik. Ümid edirəm ki, bundan sonra da belə olacaq. Azərbaycan xalqı öz qazisinə, şəhidinə dəyər verən xalqdır.

**- Müharibə dövründə tez-tez erməni əsgərlərinin döyüşdən imtina etməsi ilə bağlı xəbərlər eşidirdik. Bu haqda nə deyə bilərsiniz?**

- Düşmən Azərbaycanın güclü və rəşadətli ordusu qarşısında tab gətirməyib, çıxış yolunu geri çəkilməkdə, qaçmaqda görürdü. Nəticə artıq göz qabağındadı. Zəfər paradında nümayiş olunan hərbi qənimətlər məhz ermənilərin öz tanklarını, digər hərbi texnikalarını döyüş meydanlarında qoyub qaçdığını bir daha sübut etdir.

**- Bəzi hərbi ekspertlər bu müharibənin digər müharibələrdən fərqləndiyini deyirlər, siz bu məsələdə nə deyə bilərsiniz?**

- Müharibə özü siyasətdir, onu da ağılla idarə etmək lazımdır. Əgər hərbi ekspertlər bu müharibəni digərindən fərqləndirirlərsə, deməк ki, uğurlu siyasətin nəticəsi olub. Ali Baş Komandanın məqsədyönlü siyasəti, düzgün idarəetməsi, iradəsi, təmkini, səbri, xalqının ona inamı nəticəsində 30 illik həsrətə son qoyuldu. Təbii ki, bu nüanslara görə İkinci Qarabağ müharibəsi digər müharibələrdən fərqləndi.

**- Qələbə hissini yaşamaq necə hissdir?**

- 30 il işğal altında olan torpaqlarımızı mənfur düşmənlərdən azad etdik, üçrəngli şanlı bayrağımızı o torpaqlarda dalğalandırdıq. Buna yalnız sevinmək olar. Düzdür, minlərlə şəhidimizin qanı, qazilərimizin sağlamlığı bahasına başa gəlib. Qələbəni asan qazanmadıq. Hər qarış torpaq üçün savaşdıq, döyüşdük. Torpaqlarımızın azadlığı yolunda şəhid olan əsgərlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa, ailələrinə isə səbir diləyirəm.

**- Maraqlıdır, ordudan təxris olub evə qayıdan zaman yaşadığınız hissi necə ifadə edərdiniz?**

- Evə qayıdacağım günü hər kəs kimi mən də səbirsizliklə gözləmişəm. Hər an ailəmə qovuşmaq xəyalı ilə yaşamışam, onları düşünmüşəm. Çünki ailəm üçün, anam Amana xanım üçün, övladlarım Aytən, Rəşad, Banu üçün çox darıxmışdım. Onlara tezliklə qovuşmaq istəyirdim. Allahıma min şükürlər olsun ki, məni ailəmlə qovuşdurdu.

**- Bundan sonra nə işlə məşğul olacaqsınız?**

- Hazırda özəl şirkətlərin birində mühasib işləyirəm. Yəqin ki, bu sahədə işimi davam etdirəcəyəm. Əgər bundan sonra da vətənimin mənə ehtiyacı olarsa, yenə də hər an döyüşə getməyə hazıram.

**Söhbətləşdi:**
**Sevinc Məhərrəmqızı**

# İndiki vəziyyətdə hakimiyyət Kremlin işinə yarayır



*"Rusiya üçün Paşinyandan sonrakı Ermənistan daha acınacaqlı və idarəolunmaz görünür"*

Ermənistandakı daxili siyasi vəziyyət həddindən artıq ağırdır. Baş nazir Nikol Paşinyan hələ ki, kələklə, fitnə-fəsadla olsa belə, "post"unu qoruya bilər. Ard-arda baş tutan mitinqlərdən sonra çoxları onun devriləcəyini düşünürdü. Buna baxmayaraq, hakimiyyətin dəyişilməsinə dair ehtimallar "suya düşdü". Ən azından hələlik. Çünki Paşinyan zəli insandan yapışan kimi, kreslosundan yapışıb. Həqiqətənmi, baş nazirin sadəcə bəxti gətirir?

**BDU-nun professoru, politoloq Əlimusa İbrahimov bu barədə "Şərq"ə danışdı. Onun fikrincə, məsələyə təsir edən ən mühüm faktorlardan biri şimal qonşumuzun mövqeyi ilə bağlıdır:** "Müxalif qüvvələrin çox ümid bəslədiyi hərbi çevriliş baş tutmadı. Bu, etirazçıların zəifləməkdə olan qüvvələrini daha da söndürdü. Silahlı qüvvələrin Baş Qərargahı tabeliyindəki hərbçilərin siyasi proseslərə müdaxiləsinin yolverilməzliyi haqqında bəyanat səsləndirməyə məcbur edildi. Bəli, məhz "məcbur edildi". Çünki ABŞ eyni məzmunlu işarəni verdikdən sonra Ermənistan Prezidenti Armen Sarkisyan Baş Qərargah rəisi ilə görüşdü və onu "yerində oturmağa" dəvət etdi. Hərbçilərin geri çəkilməkdən başqa yolu qalmamışdı. Onlar hadisələrə müdaxilə edərək hakimiyyəti ələ almaq variantından əl çəkdilər.

İndi hərbçilər siyasi proseslərə qoşulmalarını qəbuledilməz hesab edirlər. Cəmi bir həftə öncə isə Paşinyanı istefa etməyə çağıran bəyanatlar verirdilər. Deməli, onları idarə edən xarici qüvvə - Rusiya indiki şəraitdə Paşinyanla vidalaşmaq fikrində deyil. Amma söhbət Paşinyanın bu gün Kremli qane edib-etməməsindən getmir.

Sadəcə Rusiya üçün Paşinyandan sonrakı Ermənistan daha acınacaqlı və idarəolunmaz görünür. Buna görə nə qədər çətin olsa da, Paşinyana dözmək lazımdır. Bir sözlə, Moskva hələ Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq istəmir".

*Professorun sözlərinə görə, ictimai rəy də mövcud iqtidarın xeyrinədir:* "Paşinyan haqqında Ermənistan və Rusiya mətbuatında yetərincə aşağılayıcı ifadələr işlədilir. Ancaq vəziyyət heç də təqdim olunan səviyyədə deyil. Hakimiyyətə can atan qüvvələrin Qarabağı itirməsi, 10 minə yaxın erməni gəncinin döyüşdə məhv olması, Ermənistan ordusunun darmadağın edilməsi ilə bağlı onun günahkar çıxarılmasına baxmayaraq, baş naziri hakimiyyətdən sala biləcək qüvvə mövcud deyil. Yəni vətəndaşlar bütün bu bəlaları qəbul etməklə yanaşı, onları birdəfəlik müharibə caynağından qurtardığına görə sanki baş nazirlə həmfikirdirlər. Ermənilər özlərinin olmayan torpaqlar uğrunda yenidən müharibəyə girmək istəmirlər. Fikrimcə, Paşinyanın hakimiyyətdə qalmasına təsir edən ikinci məsələ budur".

**Ə.İbrahimov iqtidarın "uzunömürlülüyünə" təsir edən digər amilləri də sadaladı:** "2018-ci ildə Paşinyan küçə hərəkatı nəticəsində hakimiyyətə gəldi. Sonradan bu hərəkatı "məxməri inqilab" adlandırdılar. Məqsəd Sorosun yardım etməsi idi. Deməli, indi ona qarşı olan küçə hərəkatından vaxtı ilə Paşinyan özü istifadə edirdi. Yəni bu sahədə yetərincə təcrübəsi var. Onun əleyhinə eyni silahdan istifadə edənlər elə əvvəldən uğursuzluğa məhkum idilər. Baş nazir küçə ilə manipulyasiya etməyi Ermənistanda hamıdan gözəl bilir. Elə buna görə də müxalifət onu istefaya və sonradan həbsə göndərə bilmədi. Növbəti səbəb isə Robert Koçaryan və Serj Sarkisyan cütlüyünün yenidən hakimiyyəti ələ almaq cəhdləridir. İnsanlar bu Rusiyameyillilərin hakimiyyətdə olduğu illəri çox gözəl xatırlayırlar. Camaat o illərə qayıtmaq istəmir. Bu cütlüyün hakimiyyəti bir az da davam etsəydi, yəqin, Ermənistanda əhalinin sayı indikindən iki dəfə az olardı. Çünki Koçaryan və Sarkisyan ermənilərsiz Ermənistan yaratmaq üçün çalışırdılar. Başqa bir məqam "Qarabağ klanı"nın yenidən Ermənistana rəhbər gətiriləcəyi qorxusudur. Bu klan hələ də ermənilərin "qanını içməkdə" davam edir. Onlar vəhşi qəbilənin üzvləri kimi dişlərinə keçən hər şeyi məhv edirlər. Onların öhdəsindən yalnız Paşinyan gələ bilər".

**Kənan Novruzov**

## Vaxt açıqlandı

### COVİD pasportları tətbiq ediləcək




**Avropa Komissiyası mart ayından COVİD pasportlarının tətbiqi planını təqdim edəcək.**

Bu barədə "Şərq" qəzeti "Rambler.ru"ya istinadən xəbər verir. Belə tədbirlərin Avropa Birliyi sərhədlərinin açılmasını sürətləndirəcəyi gözlənilir.

Məlumatda bildirilir ki, Avropa Komissiyası COVİD pasport sisteminin əsas prinsiplərini Avropa Birliyinin 27 ölkəsinin Xarici İşlər Nazirliyinə göndərib. Qurum turizm mövsümünün əvvəlinədək səyahət məhdudiyyətlərini ləğv edə bilmək məqsədilə sözügedən pasportları ən qısa müddətdə tətbiq etmək niyyətindədir.

**Kənan**

## İranda təyyarə qaçırmağa cəhdin qarşısı alınıb




**İranda təyyarə qaçırmağa cəhdin qarşısı alınıb.**

APA-nın Tehran bürosunun xəbərinə görə, bu barədə İslam İnqilabı Keşikçilər Korpusunun (SEPAH) Aviasiyanın Qorunması üzrə Qərargahının mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, ötən gün "İran AiR"ə məxsus "Fokker100" təyyarəsi saat 22:10-da Əhvaz şəhərindən Məşhəd şəhərinə uçarkən naməlum şəxs təyyarəni qaçıraraq Fars körfəzi ölkələrindən birinin hava limanına endirmək istəyib. SEPAH qüvvələri təyyarəni qaçırmaq istəyən şəxsi zərərsizləşdirib. Təyyarə İsfahan şəhər hava limanına təcili eniş edib. Sərnişinlərin hamısı sağlamdır. Təyyarəni qaçırmağa çalışan şəxs həbs olunub. Onun kimliyi açıqlanmayıb.

# Az ehtimal olunur

*Türkiyədəki helikopter qəzası qəsdən törədilməyib*

Türkiyənin Bitlis əyalətinin Tatvan rayonunda ötən gün hərbi helikopterin qəzaya uğramasına hava şəraitinin qısa zamanda kəskin dəyişməsinin səbəb olduğu ehtimal edilir. Bu barədə Türkiyənin Milli müdafiə naziri Hulusi Akar bildirib. O qeyd edib ki, ilkin məlumatlara və şahidlərin ifadələrinə əsasən qəzanın sürətlə dəyişən hava şəraiti səbəbindən baş verdiyi güman olunur.

Bununla belə, hadisənin dəqiq səbəbi ətraflı araşdırma nəticəsində müəyyən ediləcək. Qəza ilə bağlı araşdırmalar bu gün başlayacaq. Hadisə nəticəsində 11 hərbçinin şəhid olduğunu, daha 2 nəfərin yaralandığını bildirən Hulusi Akar qeyd edib ki, xəsarət alanlar xəstəxanaya yerləşdiriliblər: "Yaralıların müalicəsi davam etdirilir. Vəziyyətləri yaxşıdır". Hulusi Akar qəzada həlak olanlara rəhmət, ailələrinə səbir diləyib, yaralıların tezliklə sağalmalarını arzulayıb. Qeyd edək ki, həlak olanlar arasında Türkiyə ordusunun səkkizinci korpusunun komandiri general Osman Erbaş da var. Hadisə martın 4-də Türkiyə Quru Qoşunlarına məxsus "Cougar" tipli hərbi helikopter Bingöldən Tatvana uçuş həyata keçirən zaman baş verib.

Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, general Yücel Karauz "Şərq"ə açıqlamasında hansısa təxribatı istisna etdiyini dedi: "Mövcud şərait elə idi ki, hansısa hücum ehtimalı sıfıra bərabərdir. Faciəvi hadisə tamamilə hava şəraiti ilə əlaqəlidir. Və ya ola bilsin, pilotun səhvi olub. Bütün hallarda kənar təsirdən danışmaq doğru deyil".

Hərbi-siyasi ekspert Həşim Səhrablı isə bunun ilk belə hal olmadığını söylədi: "Türkiyədə, demək olar, hər helikopter qəzası nəticəsində dövlət üçün çox vacib insanlar həyatını itirir. Buna misal olaraq 1993-cü il qəzasında şəhid düşən Eşref Bitlisi və 2009-cu ildə yenə də helikopter qəzasında şəhid olmuş Muhsin Yazıcıoğlunu göstərə bilərik. Hər iki şəhid xəbəri, həmçinin digər qəzalarda da həyatını itirən insanlar Türkiyə dövlətçiliyi baxımından "kilit isimlər"dir. Onların ani ölümü cəmiyyətdə ciddi təsirlər doğurmuşdu. Həm Eşref Bitlis, həm də Mühsin Yazıcıoğlu qəzalarında sui-qəsd ehtimalları olduğu önə sürülmüşdü. Diqqət çəkən məqam cəmiyyətin özünün də bu halları sui-qəsd kimi qəbul etməsidir. Ona görə ki, Türkiyə dövlətinin



müstəqil addımlar atması və dik duruşunda bu insanlar xüsusi rola sahib simalar idi. Cəmiyyət belə qiymətli şəxslərin təsadüfən öləcəyinə inana bilmir. İnsanları inandırmaq mümkün deyil".

**Ekspertin fikrincə, sui-qəsd ehtimalı da mümkündür:** "General-leytenant Osman Erbaşın da şəhidliyi dediyim nümunələrin eyni senari üzrə davamıdır. Elə ilk gündən cəmiyyətdə sui-qəsd ehtimalları barədə fikirlər üzə çıxmağa başlayıb. Hadisəni birmənalı olaraq sui-qəsd adlandırmaq çətindir. Ona görə ki, olay hələ yeni baş verib. Bu istiqamətdə heç bir rəsmi məlumat və mütəxəssislərin yanaşması yoxdur. Ehtimalları alovlandıran əsas məsələ isə məhz Osman Erbaşın kimliyidir. Osman Erbaşın Türkiyə ordusunun inkişafında, Türkiyə dövlətinin maraqlarının qorunmasında misilsiz xidmətləri var. O hələ, 2010-cu ildə İHA-ların gələcək önəminin fərqində olmadığımız zamanlarda, Türkiyə ordusunda İHA-ları idarə edəcək personala çeşidli dərslər verilməsini təşkil etmişdi. 2016-cı il, FETÖ çevriliş cəhdi zamanı da, qiyamçılara qarşı sərt mövqedə olmuş, hətta "əsgərdə günah yoxdur, əsgər vətəndaşa güllə atmaz" sözləri ilə tarixə düşüb. Elə həmin il Baş Qərargah Kəşfiyyat xidmətinin rəhbəri olmuş, 2017-ci ildən isə Türkiyənin terrorla mübarizədə əsas ordu korpuslarından olan Səkkizinci ordu korpusunun rəhbəri təyin edilmişdi. Təbii, Türkiyənin həm ordusu, həm də siyasəti üçün belə önəm kəsb edən bir şəxsin təsadüfi qəza nəticəsində həlak olması şübhələri artırır".

**Onun sözlərinə görə, qaranlıq məqamlar heç də az deyil:** "Müdafiə Nazirliyi qəzanın baş verməsi barədə verdiyi açıqlamada ilkin ehtimala görə hava şəraitinin anidən pisləşməsini göstərir. Türkiyə kimi güclü ordusu olan ölkənin necə olur ki, ani hava dəyişkənliyinə uyğunlaşa bilən helikopterləri yoxdur? Varsa, niyə Osman Erbaştək önəmli general daha təkmil helikopterləri istifadə etməyib? Bax, bunlar cavabını gözləyəcək suallardandır. Qəzanın sui-qəsd olma ehtimalı hələlik çox aşağıdır. Ancaq irəlidə hansı yanaşmalar və faktların ortaya atılması da önəmlidir. Ya da ola bilsin, bu qəza da, Eşref Bitlis və Mühsin Yazıcıoğlu qəzaları kimi hər zaman müzakirə ediləcək, amma son nəticəyə çatmaq mümkün olmayacaq".

**Kənan Novruzov**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi




# İdman jurnalistikasının çox böyük auditoriyası var

## *Yetər ki, potensialımızdan geniş istifadə edək*

Jurnalistikanın ən önəmli qollarından biri də idman jurnalistikasıdır. Ayrı-ayrı ölkələrdə jurnalistikanın bu növü xüsusi bir sahə kimi öz inkişaf yolunu tutub. Ancaq Azərbaycanda idman jurnalistikası ilə bağlı müəyyən problemlər var. Daha doğrusu, bəzi ekspertlər hesab edir ki, idman mətbuatı digər sahə jurnalistikasının kölgəsində qalıb. Qeyd etmək lazımdır ki, müəyyən çatışmazlıqlara rəğmən son dövrlər Azərbaycan idman mətbuatında tərəqqi hiss olunur.

İdmanla bağlı xüsusi qəzetlər, jurnallar, portallar fəaliyyət göstərir. Əminliklə deyə bilərik ki, sahə jurnalistikası içərisində idman daha yaxşı inkişaf edib. İdman jurnalistikası digər sahə, məsələn, mədəniyyət və iqtisadiyyat jurnalistikasından həm dövriliyinə, həm də sayına görə hər zaman fərqlənib. Ancaq son zamanlar bu sahədə obyektiv və subyektiv səbəblərdən axsamalar oldu.

Bəzi mütəxəssislər idman mətbuatında ixtisaslaşma ilə bağlı o qədər də problemlərin olmadığını düşünürlər, amma bəziləri isə bunun tam əksini. Əvvəllər bəzi idman növlərini bilmək baxımından problemlər vardı. Lakin ölkəmizdə I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 kimi mötəbər turnirlər keçirildiyi üçün idman jurnalistlərimiz də püxtələşməyə başladı. Ümumiyyətlə, Azərbaycanda hansı idman növü inkişaf edirsə, o növ üzrə də ixtisaslaşan jurnalistlər yetişdiyi sirr deyil.

Bütün problemlərə rəğmən, mütəxəssislər hesab edirlər ki, gələcəkdə idman mətbuatı kadr baxımından problem yaşamayacaq. Çünki 2017-ci ildən idman jurnalistikasının inkişafı yönündə səmada ümid işığı görünməyə başlanıb. Belə ki, Böyük Britaniyanın Şefild Halam Universiteti ilə əməkdaşlıq çərçivəsində dünyaca məşhur media mütəxəssisi Dan Meyson, həmçinin PR və media sahəsində yerli və beynəlxalq təcrübəyə malik, proqram meneceri Ellada Mustafayeva tərəfindən təsis olunan ingilis dilli "İdman jurnalistikası" magistr proqramına qəbul keçirilib. Proqramın iştirakçıları dəfələrlə onlayn radio və televiziya vasitəsilə canlı yayım edib, yüksək nailiyyətli idmançılar, görkəmli məşqçilər,

## Sevindirici haldır ki, Azərbaycanda da bu sahədə inkişaf görünməkdədir

könüllü və tələbələrdən müsahibələr alıblar. Onlar, həmçinin proqram çərçivəsində Böyük Britaniyaya səfər edərək 2 həftə müddətində BBC və digər nüfuzlu media orqanında təcrübə qazanıblar. Hətta artıq "İdman jurnalistikası" magistr proqramının ilk məzunları artıq bir sıra yerli teleradio şirkətləri, "Associated Press", BBC, "Əl Cəzirə" kimi nüfuzlu xarici media qurumları ilə əməkdaşlıq edirlər.

**Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru, tanınmış jurnalist Vüqar Zifəroğlu "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanda idman jurnalistikası inkişaf etməkdədir.** Onun sözlərinə görə, buna səbəb ilk növbədə Azərbaycanın bir sıra vacib beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi ilə xarakterizə olunur: "Ümumiyyətlə, dünya idman jurnalistikası ən populyar istiqamətlərdən biridir. Təbii ki, onun son dərəcə böyük auditoriyası var və bu sahə çox ciddi maraq doğurmaqdadır. Yəni burada təkcə idman jurnalistikasından söhbət getmir. Nəzərə alaq ki, idmanın özünün də ayrıca növləri var. Xüsusilə də beynəlxalq idman mediasına nəzər yetirdikdə görərik ki, tək bizdə deyil, bir çox xarici ölkələrdə bu sahə üzrə ixtisaslaşmalar mövcuddur. İstər xarici ölkələrdə, istərsə də biz də ixtisaslaşmış idman kanalları, idmanla bağlı nəşrlər kifayət qədərdir. Hətta bəzən şahidi oluruq ki, ixtisaslaşmış elə peşəkar idman jurnalistləri var ki, onlar artıq təkcə jurnalist kimi deyil, həm də bir ekspert kimi rəylər verirlər. Yəni müxtəlif araşdırmalarla yanaşı, onlar həmin sahələrlə bağlı maraqlı mövzularda ekspert kimi çıxış etməkdədirlər. Sevindirici haldır ki, Azərbaycanda da son illərdə bu sahədə inkişaf görülməkdədir. Amma bu da ilk növbədə başqa bir məqamla xarakterizə olunur". **V.Zifəroğlu qeyd edib ki, ölkəmizdə idman sahəsi ilə bağlı ixtisaslaşmış media quruluşlarının sayı da kifayət qədər artıb:** "İdmanla bağlı bir neçə kanallarımız, çox sayda xəbər portallarımız var. Yaxşı olardı ki, bu sahə daha da qabağa getsin və inkişaf etsin. Bir məqamı qeyd etmək istərdim ki, bu yaxınlarda Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının (AİJA) nümayəndə heyəti Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsində olub. Görüşdə bir sıra müzakirələr edilib. Qeyd edim ki, görüş zamanı idman jurnalistlərinin ixtisaslarının təkmilləşdirilməsinə davamlı olaraq mümkün töhfələr vermək məqsədilə Jurnalistika fakültəsi ilə AİJA arasında əlaqələrin genişləndirilməsi və səylərin birləşdirilməsi qərara alınıb. Hətta dünyanın ən nüfuzlu idman jurnalistləri təşkilatı - Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (AİPS) rəsmi saytında Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi ilə əməkdaşlığına xüsusi yer ayırıb. Sevindirici haldır ki, AIJA rəhbərliyinin BDU jurnalistika fakültəsində görüşü AİPS-nin rəsmi saytında baş xəbər olub".

*V.Zifəroğlu əlavə edib ki, idman jurnalistikasının gələcəkdə gücləndirilməsi və daha inkişaf etməsi ilə bağlı maraqlı treninqlər, layihələr həyata keçirəcək:* "Yəni maksimum dərəcədə daha artıq inkişaf etməsi üçün maraqlı layihələr icra olunacaq. Ümumiyyətlə, idman jurnalistikasına maraq da çoxdur. Bu mənada maraqlı, gözəl layihələr həyata keçirməyi planlaşdırırıq ki, idman jurnalistikasına müəyyən qədər öz töhfəmizi verək. Bildiyimiz kimi, bir neçə il bundan öncə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında idman jurnalistikası ilə bağlı magistr proqramı açılıb. İdman jurnalistikasında dərs deyən müəllimlərin bir çoxu bizim fakültə müəllimlərimiz idi. Sevindirici haldır ki, bizim müəllimlər də bu prosesə cəlb olunmuşdu. Hətta magistraturada təhsil alanların bir neçəsi bizim bakalavr məzunlarımız idi. Şübhəsiz ki, bunu da bu sahədə uğur hesab etmək olar. Əminəm ki, bu proqram müvəffəqiyyətli şəkildə bundan sonra da davam edəcək. Bir jurnalist əgər bu sahəyə daxil olursa, istər-istəməz üzərində işləməli və özünü təkmilləşdirməlidir. Əgər mən futboldan, basketboldan yazıramsa, bu idman növlərini mütləq bilməliyəm. Bir jurnalist kimi bunda maraqlı olmalıdır ki, bu sahədə özünü yetişdirsin. Həmin sahə ilə bağlı daim üzərində işləməli və eyni zamanda o sahə üzrə baş verən yeniliklərdən mütləq xəbərdar olmalıdır". *Ümumiyyətlə, jurnalistikada ixtisaslaşmanın müasir tələb olduğunu qeyd edən V.Zifəroğlunun sözlərinə görə, jurnalistin konkret bir sahə üzrə ixtisaslaşması, onun bir peşəkar olaraq yetişməyinə, cəmiyyətdə qəbul edilməsinə son dərəcə ciddi təsir göstərir:* "Amma şəxsən mən arzu edərdim ki, bizdə analitik və araşdırma jurnalistikasına da diqqət ayrılsın. Bu sahədə ixtisaslaşma olarsa, jurnalistika gerçəkliyi daha dolğun əks etdirə bilər. Tələbələr jurnalist olaraq, öz sahələrini daha dərindən öyrənmiş olar".

**"Sport24.az"ın baş redaktoru Ceyhun Əliyev "Şərq"ə açıqlamasında bildirib ki, jurnalistikada mütləq ixtisaslaşma olmalıdır. Onun sözlərinə görə, bəzi həmkarlarımız digər sahələrə baş vurmağa cəhd etsələr də, müəyyən axsamalar olur:** "Hesab edirəm ki, jurnalistikada ixtisaslaşma olmalıdır. Amma təbii ki, bəzi istisnalar var. Bəzən idman, siyasət, mədəniyyət və jurnalistikanın digər sahələrinə baş vurmağa cəhd edən həmkarlarımız universal olmağa çalışsalar da, peşəkarlıqda axsayırlar. Buna görə də mütləq şəkildə ixtisaslaşma olmalıdır. Özü də idmanın içərisində də bu, baş verməlidir. Məsələn, mən sinxron üzgüçülük, bədii gimnastika, voterpol və bir sıra idman növləri barədə olduqca səthi məlumata sahibəm. Sizcə, bu növlər barədə mənim yazacağım material, götürəcəyim müsahibənin səviyyəsi qənaətbəxş ola bilərmi? Əlbəttə ki, yox".

**C.Əliyev əlavə edib ki, idman spesifik sahədir:** "Bu yaxınlarda "Report"-da Teymur Rəcəbovun iştirakı ilə turnirin videoşərhində iştirak edirdim. Tərəf-müqabilim beynəlxalq qrossmeyster Vasif Durarbəyli idi. Jurnalist olaraq seçimin mənim üzərimdə dayanmasının səbəbi üzdə idi. Vaxtilə şahmatla peşəkar səviyyədə məşğul olmuşam. Və qrossmeysterimizlə söhbət zamanı "sizcə, kim üstündür?", "Teymur niyə bu gedişə üstünlük verir?" tipli bayağı suallar verməyəcəkdim. Ancaq dərindən bilmədiyin sahəyə qol qoyanda peşəkarlar bunu dərhal hiss edir. O zaman sənin işinə heç vaxt yüksək qiymət verilə bilməz".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Pandemiya dövründə məişət zorakılığının artacağı gözlənilən idi

*Psixikası zəif olanlar, həssas insanlar karantin şəraitinin ağırlığını qaldıra bilmirlər*

"COVİD-19 pandemiyası dövründə bütün dünyada məişət zorakılığı artdı". Bu fikri Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Nümayəndəsi Hande Harmancı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ilə görüşündə səsləndirib.



ÜST-nin Azərbaycandakı nümayəndəsi ilə görüşü zamanı B.Muradova H.Harmancıya müraciətlə qadınların dünya miqyasında çətin və vacib işlərdə öz üzərinə götürdükləri rolu yüksək səviyyədə yerinə yetirdiklərini bildirib: "Siz həm təmsil etdiyiniz qurumun prioritetlərini və onların qarşınıza qoyduğu vəzifələri həyata keçirir, həm də təmsil olunduğunuz ölkə üçün vacib olan işlər görürsünüz. Bütün bunlara görə sizə dərin təşəkkürümü bildirirəm və inanıram ki, bu fəaliyyətiniz də daxil olmaqla, ümumi dünya səyləri öz nəticələrini verəcək və biz nəhayət normal həyata yenidən qayıdacağıq".

Hande Harmancı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rolunun vacibliyini vurğulayıb, Dövlət Komitəsi ilə hər zaman əməkdaşlığa hazır olduğunu deyib, COVİD-19 pandemiyası dövründə bütün dünyada məişət zorakılığının artdığını qeyd edərək, bu sahədə də hər zaman yardıma hazır olduqlarını nəzərə çatdırıb.

**"Təmiz Dünya" Qadınlara Yardım Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında ötən il 400-ə yaxın qadının birliyə müraciət edərək yardım istədiyini bildirdi:**

- Amma bu müraciətlərin hamısı məişət zorakılığı ilə bağlı olmayıb. Belə deyim; müraciətlərin 5 faizi Vətən müharibəsi dövründə zərər çəkmiş qadınlar, 5 faizi də sosial problemlərlə bağlı zəng edənlər idi. Yerdə qalanlar sırf məişət zorakılığına məruz qalan və yardım istəyənlər idi. Pandemiyanın ilk vaxtlarında müraciətlər demək olar, yox idi. Susqunluq vardı. Sanki pandemiya insanlara şok yaşatmışdı və insanlar hara müraciət edəcəklərini bilmirdilər. Sonra yavaş-yavaş işlər axarına düşdü. "Təmiz Dünya"nın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı çərçivəsində xüsusi votsap qrupu yaradıldı. Bura daxil olan məlumatlar sayəsində biz zorakılığa məruz qalan, təhlükə altında olan qadınları bölgələrdən çıxara bildik. Deyərdim ki, pandemiya dövründə məişət zorakılığının artmasının əsas səbəblərindən biri qapanmalar və sosial problemlər oldu. Sosial problemlər zorakılıq faktları yaratdı. Bu proses dalğavari özünü göstərirdi. Bəzən müraciətlər artırdı, bəzənsə azalırdı. Bəzən müraciətlər uzun müddət səngiyirdi. Sonra yenə artırdı. Ailələrin məhdud çərçivədə qalması, hərəkətsizlik, iqtisadi gərginlik ailədaxili münasibətləri də aqressivləşdirdi. Araşdıranda məlum olurdu ki, hər ailədə müxtəlif səbəblər var. Hazırda əsas vəzifə ailədaxili gərginliyin azaldılması istiqamətində tədbirlərin həyata keçirilməsidir. Bu məsələdə əsas hədəf zorakılığa məruz qalanların müəyyənləşməsi, onların təhlükəsizliyinin təmin edilməsi, ailələrə səfərlərdir.

**Psixoloq Fərqanə Mehmanqızı məişət zorakılığı hallarının artmasını pandemiya və karantin şəraitinin insan azadlığını məhdudlaşdırmasında görür. Psixoloq "Şərq"ə bildirdi ki, psixikası zəif olanlar, həssas insanlar karantin şəraitinin ağırlığını qaldıra bilmirlər:**

- Təbii ki, pandemiya dövründə məişət zorakılığının artacağı gözlənilən idi. Yəni bu, gözlənilməz hal sayılmaz. Pandemiya dövründə intiharlar, özünəqəsdlər də artdı. Bu, nəyin işarəsidir, insanlarda davranış pozuntusunun artdığının. Mən əminəm ki, intihar və özünəqəsd faktları açıqlanan rəqəmlərdən daha çoxdur. Əgər hansısa media mənsubu çox demirəm, 1 sutka Toksikologiya şöbəsinin qapısı önündə dayansaydı, 1 sutka ərzində neçə nəfər özünəqəsd edənin olduğunu rahatca dəqiqləşdirə bilərdi. Təəssüf ki, heç kim bu statistikanı aparmadı. Bəli, insanlar arasında aqressiya artıb və bu, mənəvi aclığın nəticəsidir. Pandemiya səbəbindən tətbiq edilən karantin şəraiti məhdudiyyətlər yaratdı. İnsanların azadlığı, sərbəst hərəkət imkanları məhdudlaşdı. Təməl haqqı olan azadlığının əlindən alınması insanlara hər zaman böyük sarsıntılar yaşadır. Cinayət törətmiş adamlara ən ağır cəza onların azadlıqdan məhrum edilməsidir. Amma pandemiya dövründə insanlar etmədikləri günaha, etmədikləri cinayətə görə azadlıqdan məhrum edildilər. Bu da insanlarda aqressiyanı artırdı ki, niyə mən kiminsə səhvinə görə, hardasa yarasa yemiş adamlara görə cəzalanmalıyam?! Bu hal psixikası zəif, həssas insanlara daha çox təsir edir. Panik-atak yaşayanlar da var. Hətta uşaqlar arasında nizam-intizam pozulub. Uşaqlar böyüklərin komandasına tabe olmur. Ailə başçısı evdən kənarda üzləşdiyi problemdən doğan aqressiyanı gəlib evdəkilərin üzərinə tökür. Bəs nə etməliyik? Əlbəttə, ciddi tədbirlər görülməlidir. Valideynlər arasında, iş yerlərində maarifləndirmə aparılmalıdır. Çünki böyük toplum məhz valideynlər və çalışan insanlardır. Psixoloqların da üzərinə böyük iş düşür, amma təəssüf ki, psixoloqlar işə cəlb edilmir. Nə pandemiya dövründə psixoloqlar işə cəlb edildi, nə də müharibə dövründə. Ona görə də məişət zorakılığı da artır, qazilər arasında intihar halları da. "Qaynar xətt"lərdə psixoloqlar fəaliyyət göstərmir. "Qaynar xətt"ə zəng edən adamı, hansı ki, gərgindi, kömək istəyir, başlayırlar ora-bura yönləndirməyə. Gərgin vəziyyətdə olan insana "filan nömrəyə zəng et", söyləmək onu faktiki başlı-başlına buraxmaqdır. Uşaq "Qaynar xətt"i də yoxdur. Mən uşaqlarla işləyən psixoloq belə bir "Qaynar xətt" tanımıramsa, uşaq hardan biləcək? Bu sahədə boşluqlar çoxdur. Hərəkətə keçmək, könüllü psixoloqları toplayıb onlarla işləmək lazımdır. Hande Harmacı yardım etmək istəyirsə, bir komanda formalaşdırsın və fəaliyyətə başlasın. Amma bu komanda da yalnız ayrılan maliyyə hesabına bölgələrə səfər edib treninqlər keçirən qhtlərdən ibarət olmasın.

**Məlahət Rzayeva**

# Avtobuslarda reklamların səsləndirilməsi doğrudurmu?




"Belə məqamda həssas olmalı, düzgün seçimə önəm vermək lazımdır"

Hər gün xəttə yüzlərlə avtobus buraxılır. Məlumdur ki, nəqliyyatdan da milyonlarla adam istifadə edir. Marşrut avtobuslarında yol boyu müəyyən reklamlar səsləndirilir.

"Space" TV-nin baş redaktoru Rasim İsmayılov da bu barədə narazı paylaşım edib:" Marşrut avtobuslarında səsli reklam verməyə icazə varmı?

P.S. 18 saylı avtobusda "Unibank"ın sələmçiliyi, "Ariel"in möcüzələri, "Samsunq"un "nestandart" texnikası barədə eşitməkdən başımız ağrıdı".

Təkcə Rasim İsmayılov deyil, digər insanlar da mövcud vəziyyətdən əziyyət çəkir.

**Məsələ ilə bağlı "Şərq"ə danışan tanınmış media eksperti, BDU-nun professoru Qulu Məhərrəmli bu cür məsələlərin qanunla tənzimləndiyini bildirib:** "Metroda, ictimai nəqliyyatda səslənən materiallar informativ, təşviqat xarakterli olur. Amma reklam xarakterli məlumatların təqdimatında həssaslıq tələb edilir. Sosial çarxlar, virusdan qorunmaq üçün müəyyən qaydalar yerinə düşür. Hər hansı bir malı, yaxud xidməti tərifləmək istəyiriksə, bunun nə dərəcədə qanunauyğun olubolmadığını dəqiqləşdirmək lazımdır. Kommunikasiya vasitələrində gedən reklamlarla, nəqliyyatda təsadüfən toplaşmış kontingentin qavrayışı, psixoloji durumu eyni deyil. Ona görə də belə məqamda həssas olmalı, düzgün seçimə önəm vermək lazımdır".

# Xudafərin gömrük postu yenidən açılır

Azərbaycanla İran arasında Xudafərin gömrük postunun açılması barədə fikirlər var. Bunu Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev mətbuat konfransında deyib. O qeyd edib ki, İran İslam Respublikası ilə Azərbaycan arasında yeni gömrük postunun açılması ehtimalı var: "İki ölkənin gömrük qurumları və digər qurumlar arasında danışıqlar gedir. Nə vaxt açılacağı ilə bağlı konkret tarix demək olmaz, ancaq iş gedir".



Bu, Azərbaycanın xarici iqtisadi əlaqələrin genişləndirilməsi baxımından çox vacibdir

**Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, işğaldan əvvəl də Xudafərin gömrük postu fəaliyyət göstərirdi.** Deputat qeyd edib ki, Xudafərin gömrük postu Azərbaycanın xarici iqtisadi əlaqələrin genişləndirilməsi baxımından çox vacibdir: "Bu, Azərbaycan-İran arasında sərhəd dövriyyəsinin artırılmasına xidmət edəcək. Nəzərə alsaq ki, bu postun gələcəkdə istifadəyə verilməsi fonunda şimal-cənub nəqliyyat dəhlizi vasitəsilə daha çox yüklərin digər ölkələrə daşınmasına imkan verəcək. Qeyd edim ki, bu nəqliyyat dəhlizi Hindistana qədər uzanan kifayət qədər böyük nəqliyyat dəhlizidir. Bu kontekstdən də gözlənilir ki, həm Azərbaycan-İran arasında ticarət dövriyyəsinin genişlənməsinə, həm Azərbaycanda aktiv şəkildə dəstəklədiyi nəqliyyat dəhlizi vasitəsilə daha çox beynəlxalq yüklərin daşınmasına imkan yaradacaq".

**Aynurə Pənahqızı**

# Parta arxasında oturan oğlan uşaqları inkişafdan qalır

## *Çünki məktəblərdə kişi yox, qadın müəllimlərin sayı artır*



Uşaq məktəbə gedən andan oranı özü üçün ikinci ailə, ev sanır. Buna görə də orta təhsil almaqla kifayətlənən gənclərin müəyyən təməli olmuş olur. Hər ailənin ata və anası olduğu kimi məktəbdəki ailənin də valideyni olmalı idi ki, uşaq mühitlə uyğunlaşa, inkişaf edə bilsin.

Əvvəllər məktəblərin yetərli sayda həm kişi, həm də qadın müəllimləri olurdu ki, şagirdlər hər iki cinsdən də özləri üçün nümunə götürə bilirdilər. Lakin zaman elə dəyişib ki, hazırda qadın müəllimlərin sayı kişi müəllimlərin sayının heç üçdə birini təşkil etmir.

Məktəbi ailəyə, müəllimləri də valideynə bənzətməyimiz heç də qəribə və təsadüfi deyil. Atasız ailədə böyüyən birinin necə fərqli yetişdiyi kimi, günümüzdə məktəb və universitetlərdə kişi müəllimlərinin sayının az olmasının da şagirdlərin yetişməsinə ən az o qədər təsiri var.

Məktəb və universitet müəllimləri arasında kişilərin az olması son onillikdə zaman-zaman gündəmə gəlib. Bu gün də bu məsələ gündəmdədir.

**Məsələ haqqında "Şərq"ə danışan "Gələcək Gənclər" İctimai Birliyinin sədri Kazım Məmmədov bildirdi ki, bu sənətdə məsələ kişilərin azalmasında deyil, qadınların çoxalmasındadır:** "Əvvəllər müəllimliyə ilahi bir peşə kimi baxırdılar. Kişili qadınlı hər kəs bu sənətə meyl edirdi. Amma sonralar belə bir fikir formalaşdı ki, "müəllimlik qadın sənətidir. Qoy evlənəndən sonra da işləyə bilsin, səhər işə getsin, günorta qayıtsın". Mənim özümə də maraqlıdır ki, bu absurd düşüncəni kim və ya kimlər gündəmə gətirib. Bunun səbəbindən kişilər nəinki orta məktəb müəllimliyindən, hətta universitetlərdə dərs deməkdən də çəkinirlər.

Bütün bu səbəblərə görə qadınların sayı müəllimlik sənətində görülməmiş sayda artmağa başladı. Hətta qızlar gələcəkdə işləməsələr belə deyirlər ki, heç olmasa, müəllimlik oxuyum, əlimdə diplom olsun.

İstər-istəməz bir cinsin çoxluq təşkil etdiyi ortamda digər cinsin nümayəndələri ordan təcrid olunur. Kişilər də düşünürəm ki, bu səbəbdən seçim edəndə müəllimliyi yox, digər sahələri seçməyə maraq göstərirlər.

Necə ki, təhsil alanların bir qismi qız, digərləri oğlandır, müəllimlər də kişili-qadınlı bu sənətdə varlığını bildirməlidirlər".

**Ağarza Elçinoğlu**

## Qanunvericilikdə nəzərdə tutulmayıb

### Dövlət özəl şirkətdən kimisə işə götürməyə məcbur edə bilməz



**Ölkəmizdə bir sıra xarici şirkətlər var ki, işçi vakansiyalarında vətəndaşlara yer ayırmırlar. Bu da insanların narazılığına səbəb olur.**

İşsizliklə bağlı problemlər Dövlət Məşğulluq Agentliyi tərəfindən araşdırılır. Agentliyin sədri Mustafa Abbasbəyli isə deyir ki, işsiz şəxslərin işlə təminatı üçün göndərişlər məşğulluq orqanları tərəfindən verilir. Lakin biz dövlət olaraq, özəl şirkətləri hər hansı bir işçinin işə götürülməsinə məcbur edə bilmərik.

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Natiq Cəfərli deyir ki, dövlət orqanlarının özəl sektora hər hansı bir göstəriş verməməsi qanunla müəyyən olunur:** "Əgər bu hal qanunvericiliklə tənzimlənsəydi, o zaman dövlət orqanları tərəfindən müdaxilə etmək mümkün ola bilərdi. Məsələn, Qazaxıstanda illər öncə bununla bağlı ayrıca bir qanun qəbul olunub. Dövlət Qazaxıstanda fəaliyyət göstərən özəl şirkətlərə kvota qoymuşdu ki, işçilərin azı 20-30 faizini yerli vətəndaşlar təşkil etsin. Bu qanuna görə, dövlət həmin sektorlara nəzarət edə bilir. Ölkəmizdə isə belə bir qayda-qanun yoxdur. Ona görə də özəl şirkətlərə dövlətin hansısa göstəriş verməsi, vətəndaşların məcbur işə götürülməsini tələb etməsi qanunvericilikdə nəzərdə tutulmayıb".

**Aytac Ali**

## Əlil vətəndaşlar işlə təmin olunur

### "Onların cəmiyyətə inteqrasiyası üçün gözəl təşəbbüsdür"



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli son aylar ölkə üzrə bütün işə götürənlərin monitorinqinin keçirildiyini söyləyib:**

"Müəyyən olunub ki, 6 minə yaxın kvota üzrə iş yerlərinin yaradılması imkanı var. Bu o deməkdir ki, biz əlillərin və digər həssas kateqoriyadan olan şəxslərimizin işlə təmin edilməsi imkanlarını iki dəfə artıra bilirik. Bu, kifayət qədər yaxşı haldır və yaxın müddətdə prosesə başlayacağıq".

**İqtisadçı-ekspert Nazim Bəydəmirli "Şərq"lə həmsöhbət olarkən əlil vətəndaşların işlə təmin olunmasını müsbət hadisə kimi dəyərləndirib:** "Onların cəmiyyətə inteqrasiyası üçün gözəl təşəbbüsdür. Hörmətli məşğulluq agentliyinin nümayəndələri açıqlasınlar ki, hansı sektorlarda işlə təmin edəcəklər. Təbii ki, dövlət çalışanların bir hissəsini belə vətəndaşlardan götürsə, yaxşı olar. Əlil vətəndaşlara verilən müavinətlər onların yaşayış minimumunu təmin etmir. Əslində əlil şəxslərin işləməyə məcbur olmaları utandırıcı haldır. Amma bu təşəbbüsləri alqışlayıram. Əlil insanlar özlərini pis, yarımçıq hiss etməməlidirlər. Evdə işsiz qalmaq, bəzən onlarda depressiyaya yol aça bilir. Bir də ölkə iqtisadiyyatına da baxılmalıdır, məmur sahibkarlığı aradan qaldırılmalıdır. Hüquq və vəzifə bərabərliyi bütün sahibkarlıq üçün eyni olduqda bu hallar öz-özünə həllini tapır".

**Samirə Ərəblinski**

# Müştəriləri aldadırlar

## *Kampaniya yaxşıdı, hədiyyə etmək də, amma gərək zay məhsul olmaya*

Novruzqabağı "endirim", "hədiyyə" kampaniyaları start götürüb. İri marketlərdə "birini alana biri hədiyyə", "1+2", "düyü+duz"... "yağ (əlbəttə, palma yağı) + makaron" və sair bu kimi hədiyyələr təklif edilir. Hələ "ilk 1000 müştəriyə avtomobil" hədiyyəsi təklif edənlər də var. İndi gəl, dayan, marketin qapısında və girib-çıxan müştəriləri say görək, 1000-ci müştəri sən ola biləcəksən, ya yox. Kampaniya yaxşıdı, hədiyyə etmək də. Amma həqiqi olsa. Daha çox məhsul satmaq üçün müştərilərin aldadılmasına xidmət etməsə.

Ölkənin ən məşhur taksit kartı olan BirKart da Novruz bayramı ərəfəsində müştərilər üçün yeni güzəştli aksiya təqdim edir. Şərtlərə görə, BirKart ilə partnyor mağazalarında 3 dəfə 100 AZN və daha yuxarı məbləğdə taksitli alış-veriş edən müştərilər 20 AZN qazanacaqlar.

Bundan başqa, Bakcell abunəçilərinə kampaniya müddətində bütün 100 AZN və çox məbləğdə taksit əməliyyatlarına görə "Ulduzum"dan 15 pulsuz danışıq dəqiqəsi əldə edəcəklər. Hər bir müştəri kampaniyadan yalnız bir dəfə 20 AZN qazana bilər. Kampaniya 5 mart 2021-ci ildə başlayır və 5 aprel 2021-ci il tarixinədək davam edəcək. Verilən məlumatlar bundan ibarətdir. Dərin düşüncəyə malik olanlar bunun sadəcə müştəri cəlb etmək variantı olduğunu anlayır. BirKartla patnyor mağazalarda 3 dəfə 100 manatlıq alış-veriş etməlisən ki, sənə 20 manat "mükafat" versinlər. Kasıb adam, aztəminatlı ailə 3 dəfə 100 manatlıq alış-veriş etmək iqtidarında deyil. Bu imkana sahib olanlarınsa 20 manata ehtiyacı olmaz yəqin. Deməli, kampaniya imkanlı adamlar üçündür. Kasıb-kusubu düşünən yoxdur. Halbuki, dünyanın əksər ölkələrində bayram günləri, ölkə üçün əlamətdar günlərdə xüsusi endirim kampaniyaları təşkil edilir ki, imkansızlar da ondan yararlana bilsin.

**Elan edilən kampaniya ilə bağlı fikirlərini "Şərq"lə bölüşən iqtisadçı Əkrəm Həsənov qeyd etdi ki, belə kampaniyalarda məqsəd daha çox mal və məhsul satmaq, insanların son pulunu da xərcləməsidir:**

- Adətən belə kampaniyalar ona görə keçirilir ki, insanlar əllərində olan pullarını son qəpiyinədək xərcləsinlər. Bu da marketinqin fəndlərindən biridir. Belə kampaniyalar sayəsində marketlər, alış-veriş mərkəzləri 1 ayda sata bilmədiklərini 1 həftəyə satırlar. Belə izah edim; aztəminatlı ailənin əlində 500 manat pul var. Xanım kişinin beynini "yeyir" ki, filan marketdə kampaniya var, 20 manat hədiyyə edəcəklər. Kişi də bezir, arvadı yanına alıb gedir marketə. Lazım oldu-olmadı, nə gördü alırlar, təki 100 manatlıq alış-veriş tamamlansın. Amma anlamırlar ki, aldıqları malların, məhsulların həqiqi qiyməti təklif olunan qiymətdən dəfələrlə ucuzdur. Sadəcə, reklam, kampaniya şərtləri ilə insanları aldadır, gözlərini "bağlayırlar". İnsanlarımız birdəfəlik bilsin ki, adama havayı heç nə vermirlər. Hansısa məhsulun qiyməti üzərində ucuz yazılıbsa, hətta bu belə, onun həqiqi qiyməti deyil. Marketlər, şirkətlər sadəcə, yaranmış fürsətdən faydalanıb, daha çox gəlir əldə edirlər.




"Adətən belə kampaniyalar ona görə keçirilir ki, insanlar əllərində olan pullarını son qəpiyinədək xərcləsinlər"

**Məlahət Rzayeva**

# Əli ürəyinin üstündə getdi

## Böyük sənətkarın ölümündən 28 il ötür

Mart ayının 5-i aktyor Ceyhun Mirzəyevin anım günüdür. "Ögey ana" dan " Fəryad"a doğru irəliləyən bir aktyor ömrünün sona çatdığı tarixdir. Onu İsmayılın üsyankarlığı, təmiz qəlbi ilə tanıyıb, " Fəryad"dakı Vətən dərdi, ürək yanğısı ilə sevdik. Bir də o filmdən sonra bu dərdli adamla vidalaşmalı olduq. Gəlin, C.Mirzəyevin həyat yoluna nəzər salaq.

C.Mirzəyev 9 aprel 1946-cı ildə Ağdam rayonunun Abdal-Gülablı kəndində dünyaya göz açıb. Azərbaycan Dövlət İncəsənət İnstitutunun rejissorluq fakültəsini bitirib. Moskvada da təhsil alıb. Onun 46 illik ömrünün 35 ilə yaxını kino ilə bağlıdır. Aktyor "Görüş" filmində Şıxəlinin oğlu obrazını canlandırdanda cəmi 11 yaşı var idi. On iki yaşında isə "Ögey ana"ya dəvət almışdı. Ceyhun Mirzəyev kinostudiyada müxtəlif peşələrdə çalışıb. Assistent də olub, rejissor köməkçisi də işləyib, aktyorluq da edib, üstəlik, rejissor kimi filmlər də çəkib. "Mozalan" satirik kinojurnalı üçün süjetlər hazırlayıb. "Mozalan"ın bədii rəhbəri imiş.

Ceyhun Mirzəyev həm də güclü parodiyaçılıq qabiliyyətinə malik olub. Hətta bir dəfə söhbət etdiyi adamın səsini, danışıq formasını o dəqiqə yamsılamağı bacarırmış. "Mozalan"ın başlığında səslənən vızıltı səsi də ona məxsusdur.

Ceyhun Mirzəyevin son filmi "Fəryad"dır. Heç özü bu filmi izləyə bilməyib. Vaxtsız ölüm ona filmin premyerasında iştirak etməyə də imkan vermədi. Deyirlər, studiyada özünü pis hiss edib, Ceyhunu evə güclə çatdırıblar. 1993-cü ilin martın 5-də vəfat edib. Yasamal qəbiristanlığında torpağa tapşırılıb.

**Bir vaxt mətbuata müsahibə verən "Fəryad"ın quruluşcu operatoru Kənan Məmmədov C.Mirzəyev haqqında bunları söyləyib:** "Onunla bir nəslin nümayəndəsi idik, çox yaxın dost olduğumuzdan indi də xatirəsi ürəyimə əbədi həkk edilib. O, həmişə istəyirdi ki, birgə film çəkək, amma alınmırdı. "Təhminə" filminin çəkilişləri yenicə bitmişdi. Ceyhun bilirdi ki, hələ yeni filmə də başlamamışam. C. Cabbarlı adına kinostudiyanın dəhlizində məni tutdu, dedi ki, "Qarabağ haqqında bir senari var, istəyirəm birgə çəkək. Mənə yox demə,





çünki bilirəm ki, bu dəqiqə əlində film yoxdur". Senarini oxudum və mənə maraqlı gəldi. Çünki filmin senarisi real həyatda olan zabitdən bəhs edirdi. O zabit doğrudan da savaş zamanı ermənilərə əsir düşmüşdü və bir neçə erməni əsiri ilə dəyişmişdilər. Bu senarini Vaqif Mustafayev yazmışdı. Senarilə tanış olduqdan sonra görüşdük və film haqqında uzun müzakirəmiz oldu ki, necə, kimi çəkək. Filmin start mərhələsi belə oldu".

Demə, filmin sınaq çəkilişlərində Fəxrəddin Manafov da iştirak edib. Lakin sonra C.Mirzəyevin çəkilməsi təklif olunub: "Çox təəccüb etdim, çünki o rol üçün Ceyhun tam da uyğun deyildi. Yəni boyu bəstə, kilo baxımından ağırlaşmış və s. idi. C.Mirzəyev bildirdi ki, filmə özü çəkilmək istəyir. Amma mən öz fikrimi demədim. Çəkilişlər başladı, nəticə çox gözəl oldu. Onun daxili iztirabları, düşüncələri hamısı həqiqət idi. Film çəkilməmişdən əvvəl onun təsvir sistemini qurmuşdum. Qərara gəldim ki, filmi xronika səpkisində çəkmək lazımdır. Rəngli filmdir, amma tamaşaçı onu ağ-qara kimi qəbul edir. Buna səbəb odur ki, mən bütün kadrlarda olan rəngli əşyaları, geyimləri, elementləti çıxartdım. Ancaq real rənglərdən istifadə edərək xronika stilini saxladım".

Ceyhun Mirzəyev filmin hazır olub ekranlara çıxmasını həsrətlə gözləyir, amma "Fəryad" filminin çəkilişlərindən sonra o, mikroinsult keçirir. İki həftəlik müalicənin ardınca yenidən filmin işlərini davam etdirməyə başlayır.

1993-cü il martın 5-də , 47 yaşının tamamına 1 ay qalmış Ceyhun Mirzəyev telestudiyaya gedir. Onun "Fəryad" filmi haqqında veriliş hazırlanırdı. Elə oradaca vəziyyəti pisləşir. Diktor Hicran Hüseynov onu maşına qoyub evə gətirəndə Ceyhun Mirzəyev özündə olmayıb. Yalnız əli ürəyinin üstündə olub.

**Xanımı danışır ki, ürəyində güclü ağrı vardı:** "Tez uzandırdıq, təcili yardım çağırdıq. Əsirdi, titrəyirdi deyə ayağını isti suya qoydum. Yenə xeyri olmadı. Bir anlıq gözünü açıb qızımız Cəmiləni çağırdı. Qızın üzünə baxdı və gözlərini yumdu. Biz elə bildik yuxulayıb. Amma təcili yardım gəlib dedi ki, canını tapşırıb".

*İndi 2021-ci ilin mart ayıdır. Ötən il 44 günlük müharibədə tarixi qələbə qazandıq. Əfsuslar olsun ki, Ceyhun Mirzəyev zəfər sevincini yaşaya bilmədi. Çünki 28 il öncə Qarabağ dərdi ilə əbədiyyətə qovuşdu.*

**"İsmayıl"ın ruhuna sayğılarla...**

**Samirə Ərəblinski**



## "Oxumağı unutmuşuq"

"Belə getsə, musiqiçilər çörəksiz qalacaq"

**"Ən çətin vəziyyətdə qalan musiqiçilər oldu. Biz müğənnilər bir başqa cür əziyyət çəkdik. Amma musiqiçilər tam başqa. Onlar günlük işləyən insanlardır.**

Nə qədər arxalarında pul olsa da, bir il dayana bilməzdilər. İstərdik ki, musiqiçilər haqqında aidiyyatı qrumlar düşünsün. Pandemiya nə qədər olacaq bilinmir. Başqa problem də yarana bilər. Bunlar çörəksiz qalacaq".

**Bu sözləri müğənni Roza Zərgərli "Xəbər-ətər" proqramında deyib. Sənətçi pandemiya ərəfəsində sənət adamlarının işsiz və gəlirsiz qalmasından söz açıb. O bildirib ki, ən çox əziyyəti musiqiçilər çəkir:**

"Çoxları ailəlidir, evinə çörək aparmalıdır. Müğənnilər isə oxumağı unutmuşuq".

Roza telekanalların sənət adamlarına qarşı diqqətsiz olduğunu deyib:

"Gənclərə yer vermirlər. Özüm "Bakı vaxtı ilə" adlı proqram aparıram. Novruz bayramı üçün çəkiliş edirdim. 5 sözünü demiş ifaçı çağırdım, qalan gənclərə üstünlük verdim. Cavanlara yol verilməlidir, onlar çoxlarından istedadlıdırlar".

# Erkən yaşlı qızların ərə verilməsi cinayətdir

## *Onlar nə bilirlər ki, analıq hissi nədir*



Gürcüstanın Qori rayonunda 13 yaşlı məktəbli dünyaya uşaq gətirib. Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb. Faktla bağlı "yetkinlik yaşına çatmayan şəxsə qarşı seksual xarakterli zorakılıq hərəkətləri etmə" maddəsi ilə cinayət işi başladılıb.

"Netgazeti" xəbər verir ki, kənddə bu hadisədən çoxdan xəbərdar olublar. Uşağa 12 yaşında təcavüz edən ailəsinin tanışı tutulub. **Baş verən hadisəni "Şərq"ə dəyərləndirən sosioloq Lalə Mehralı bildirib ki, 12 yaşlı uşağa təcavüz olunması dəhşətdir:** "Amma təcavüz edilməsə belə, Gürcüstanda 13-15 yaşlı qızların ana olması bizim qədər onları narahat etmir. Həmin bölgədə bu halı normal qəbul edirlər, cinayət olduğunun fərqində deyillər, azyaşlı qızların ərə gedib ana olması onlar üçün adi haldır. Təcavüz halı qeydə alınıbsa, hamiləlik müşahidə edilən kimi abort aparılmalı idi. Belə hallarda azyaşlı mütləq şəkildə abort və yaxud başqa yolla döldən azad edilir. Çünki həkimlər onun körpə bədəninin doğuşa hazır olmadığı qənaətinə gəlirlər. Abort etməyiblərsə, deməli, valideynlər qızın ana olmasına razılaşıblar. Yəni bu durum onlar üçün dəhşətli deyil. 13 yaşlı qız körpədir, o nə bilir analıq, dünyaya uşaq gətirmək nədir? Bu yaşda biri fizioloji və psixoloji olaraq ana olmağa hazır deyil. Odur ki, bütün hallarda qanunsuzluq və cinayətə yol verilib". **Mama-ginekoloq Raya Qasımova fizioloji və psixoloji baxımdan qızların ailə qurması üçün ən yaxşı yaş həddinin 20-30 yaş arası olduğunu deyir.** Onun sözlərinə görə, ərə getmək üçün qızların orqanizmi müəyyən qədər formalaşmalıdır: "Hələ 17 yaşı tamam olmayan bir qız ərə gedən zaman orqanizmdə reproduktiv funksiyanı yerinə yetirən, birbaşa beyinlə əlaqədar olan endokrin orqanlar öz funksiyasını tam şəkildə başa çatdırmamış olur. Ona görə də belə qızlarda bir sıra fəsadlar üzə çıxır. Birinci, elə gözlə görünən patalogiyanı deyim. Məsələn, 10 ildən sonra həmyaşıdları ilə müqayisədə belə qızlar xeyli yaşlı görünürlər. Hamiləliyi erkən toksikoz və başqa bir sıra fəsadlarla müşayiət olunur. Qızların erkən yaşda ana olması onlar üçün birbaşa psixoloji zərbədir. Sonrakı mərhələdə də aydındır ki, uşağa normal baxa, yaxşı qulluq edə bilmirlər". *Həkimin fikrincə, qızların erkən ana olan zaman öz uşaqlarına qarşı laqeyd yanaşması real problemlərdən biridir:* "Çünki onun özü hələ uşaqdır. Ana ilə uşaq arasında 14-15 yaş fərq olur. Bacı-qardaş arasında da belə fərq ola bilər. Özü hələ uşaq olan, gəlinciklərlə oynamaqdan doymayan bir insanın övladı dünyaya gələndə həmin uşaq ona artıq kimi görünür. Analıq hissini qətiyyən dərk etmirlər. Bu baxımdan erkən doğuş həqiqətən təhlükəlidir. 13 yaşda dünyaya uşaq gətirmək həm ananın, həm də uşağın səhhətində problemlərin yaranmasına səbəb olur. Çox vaxt ana və ya uşaq ölümü ilə nəticələnir".

**Yeganə Bayramova**

# Sosioloq özü də psixoloji zədə alıb

**“Mətbuatda intihar hadisələrinin verilməsi məhdudlaşdırılmalıdır”**



Bütün canlılar yaşamaq üçün səy göstərirlər. Bu o qədər dərindən köklənmiş bir impulsdur ki, ən mürəkkəb cəmiyyət belə qursaq, hər birimiz həyatda qalmaq üçün mübarizə aparacağıq. Lakin bəziləri səy göstərməyə dözə bilmir, "təslim olur". Səbəbindən və məntiqindən asılı olmayaraq öz həyatını əlindən almağa intihara deyilir. Son vaxtlar ölkəmizdə intihar nəticəsində ölənlərin sayı da artır.

Dünən Abşeron rayonunda daha bir intihar hadisəsi baş verib. 30 yaşlı Nurlan Mollayev yaşadığı evin həyətində özünə qəsd edib. Faktla bağlı Abşeron rayon prokurorluğunda araşdırma aparılır.

**Tendensiya halını alan intihar hadisələri ilə bağlı sosioloq Sahib Altay ”Şərq”ə danışıb. O, haqqında danışmaq istəmədiyi mövzulardan birinin intihar olduğunu bildirib:** ”Ailəmdə iki doğmamın həyatı intihar ilə sona çatıb. Bu özümdə də travma halına çevrilib. Dünya ədəbiyyat tarixində ən çox intihar şahidi olan şəxs Heminquey olub. Onun ətrafında özünə qəsd edənlərin sayı çoxdur. Jurnalist intihar mövzusu ilə bağlı ondan müsahibə götürür. Heminquey də intihara belə tərif verir: ”Məni həyata bağlayan araşdırmaq, bilgi öyrənmək kimi müəyyən səbəblər var. Öz daxilimdə həmişə arzulayıram ki, bəzi suallara heç vaxt cavab tapmayım, yaxud uzun müddətdən sonra cavab tapım ki, intihar etməyim”. Həmin müsahibədən sonra Heminquey intihar edir. Onu həyata bağlayan stimulverici bir şey olmur”.

**Sosioloq orta əsrlərdə Avropada yaranan ”Verter sindromu”ndan söz açıb:** ”Alman yazıçısı İohann Volfqanq Göte ”Gənc Verterin iztirabları” əsərinin sonunda qəhrəman Verter intihar edir. Bu əsər məşhurlaşandan sonra həmin qəhrəmandan təsirlənənlər intihara əl atır. Mövcud məsələ elmə yansıyır və adını ”Verter sindromu” qoyurlar. Dünya elm tarixində ABŞ-ın Kaliforniya universitetində sosial tədqiqatçı David Flip 1947-62-ci illər ərzində araşdırma nəticəsində sübut edib ki, intihar epidemiya halını ala bilir. Devid Flipin təcrübələri intihar hadisələrinin birbaşa olaraq mətbuatla əlaqəli olduğunu göstərir. 15 il ərzində ABŞ-ın ştatlarında baş verən intihar hadisələrinə nəzər salır, sonra da mətbuatda işıqlandırılan intihar hadisələrinə baxır. Görür ki, həmin illərdə bu mövzu hansı şəkildə dərc olunubsa, o ərəfədə baş verən özünəqəsd hadisələri eyni cür baş verib. Çoxsaylı intiharlar eyni zamanda kəsiyində olub. Nəticəyə gəliblər ki, hadisələrin mətbuatda gündəmə gəlməsi daha çox intihara səbəb olur”.

*S.Altay bildirib ki, pandemiya Azərbaycanda ikiqat psixoloji sindroma səbəb olub:* ”Biz koronavirusla paralel olaraq müharibə dönəmini yaşadıq. Ölkədə 3 min şəhid ailəsi, yüzlərlə qazi, həmçinin ağır həyat tərzi keçirən, işsiz qalan şəxslər var. Bu səbəblərin hamısı yığılıb intihar ilə nəticələnib. Xaricdə mətbu orqanlarda intihar edən şəxslərin kimlikləri tam dəqiqliklə yayımlanmır, xüsusi şərtlər əsasında işıqlandırılır. Məncə, mətbuatda intihar hadisələrinin işıqlandırılması məhdudlaşdırılmalıdır. Dövlət də bu məsələyə diqqət yetirməlidir”.

**Aygün**

## Çəhrayı və sarı...

Yazın ən dəbli çalarları müəyyənləşdi



**Zeytun yaşılı çəhrayı və sarı ən dəbli çalarlar siyahısına daxil edilib.**

Solğun yaşıl populyarlığını bu gün dəbdə olan militari üsluba, yəni hərbi geyimlərə borcludur. Odur ki, xakinin müxtəlif çalarları bizə çoxdan tanışdır. ”Boz” qış obrazlarından yorulmusunuzsa və ya şokedici neon çalarları xoşunuza gəlmirsə, sakit zeytun çalarlarına daha yaxından baxmağın vaxtı çatıb. Yaşılın solğun versiyaları instaqram ulduzlarının da qarderobuna yol tapıb. Bu trend rəng nəcib tonlar siyahısına daxil edilir və istənilən geyim çeşidlərində də rast gəlinir. Üstəlik bu rəngi uyğunlaşdırmaq da son dərəcə sadədir. Bunu küçə tərzi ulduzlarının şəkillərinə baxaraq söyləmək olar, zeytun yaşılı qara rəngləri bir anda hərəkətə gətirdi. Sakit yaşıl çantalar heç bir şəkildə praktikliyi baxımından adi bej və bozdan seçilmir. İkincisi, heç bir çalar zeytun yaşılı qədər lüks və cah-calallı görünmür, hətta qəhvəyi rəng də onunla müqayisə edilə bilməz. Modapərəstlər yaşılın dərinliyini lakonik qara elementlərlə vurğulamağa üstünlük verirlər. Sakit yaşıl ilə qəhvəyinin vəhdəti də aktualdır. Leoni Hannenin zeytun hərbi plaşı ilə qəhvəyi kəməri buna mükəmməl nümunədir. (publika.az) Yer tonları bu mövsüm həmişəkindən daha aktualdır, odur ki, bu rəng uyğunluğunu da əldən verməK sadəcə yolverilməzdir. Dəb blogerlərinin ən təəccüblü birləşməsi bəlkə də bütün giləmeyvə tonları ilə zeytun rənginin duetidir. Açıq yaşıl şalvarı çəhrayı neylon torba çanta və ya ipək kofta ilə kombinə etməkdən çəkinməyin. Bu kombinasiya sizi yazın ən dəbli xanımı edəcək.

# Azərbaycanda ilk dəfə jest dili lüğətinin veb səhifəsi hazırlanır

Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) elan etdiyi "Sosial layihələr" müsabiqəsinin qaliblərindən olan "Doğma jest dili" layihəsi çərçivəsində "NAR"ın maliyyə dəstəyi ilə veb-sayt hazırlanacaq.

Belə ki, veb səhifədə jestlərin şəkilləri, videoları, eyni zamanda jestlərin göstərilməsi ilə bağlı izahedici mətnlər yerləşdiriləcək. Veb saytın digər üstünlükləri insanlar üçün daha əlçatan olması və sözlərin asanlıqla axtarışını aparmağa imkan verməsidir. Lüğətdə 3000-ə yaxın sözün jest dilində tərcüməsi göstəriləcək. Qeyd edək ki, ”Doğma jest dili” lüğətinin elektron variantı eşitmə və nitq məhdudiyyəti olanlar və onların yaxınları, həmçinin bu qrup insanlarla işləyən surdotərcüməçi, surdoloq, müəllim və loqopedlər üçün əvəzedilməz vasait olacaq. Bundan başqa, saytın mobil versiyası da hazırlanacaq.

”Karlara Dəstək” İB-nin sədri Kamran Abasovun sözlərinə görə, jest lüğətinin elmi-metodik cəhətdən düzgünlüyünü təmin etmək məqsədilə bir neçə qurumun mütəxəssislərindən ibarət işçi qrup yaradılıb. ”Doğma jest dili” lüğətinin elektron formada olması ilə eşitmə məhdudiyyəti olan uşaqların valideynləri və onların yaxınları daha çox söz toplusu əldə edə biləcək və ünsiyyət zamanı çətinlikdən uzaq olacaqlar. Veb səhifədə sözlərin şəkillər və videolarla izahı ilə yanaşı, jest dilinin mimika ilə ifadə edilən işarələrini də görmək mümkün olacaq. Layihənin ərsəyə gəlməsi üçün göstərdiyi dəstəyə görə RİİB-ə və ”Nar”a təşəkkür edirik”.

Xatırladaq ki, ”Karlara Dəstək” İctimai Birliyi tərəfindən müsabiqəyə təqdim edilən ”Doğma jest dili” layihəsinin əsas məqsədi eşitmə və nitq qabiliyyəti məhdud olan insanların əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətinin artırılması və ətrafdakı insanlarla ünsiyyətin təşkil olunmasını nəzərdə tutan jest dili lüğətinin hazırlanmasıdır. Qeyd edək ki, ”Nar” bundan əvvəl eşitmə və nitq məhdudiyyəti olan insanların müxtəlif peşələrə yiyələnməsi üçün paytaxtda və regionlarda ”Təlim məktəbi” təşkil edib, eyni zamanda işarət dilində olan sözlərin jestlərlə izahını verən ”Səssiz dünyaya körpü” adlı kitabı nəşr etdirib.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Psixologiya və Para psixologiya** (3-12 ay)
**Tel: (012) 566-88-96**
**(012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd
Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru
Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073
Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 442

# Yer kürəsinə beş asteroid yaxınlaşır



**Bu gecə Yer kürəsinə sərnişin təyyarəsi ölçüsündə asteroid yaxınlaşacaq.**

"Report" xəbər verir ki, bu barədə NASA JPL Elmi Tədqiqat Mərkəzi bildirib.

Saytdakı hesablamalara əsasən 2021 CF8 asteroidinin Yerdən ən yaxın məsafəsi 4,4 milyon kilometr təşkil edəcək. Göy cisiminin diametri 52 metrə bərabərdir.

Bu gün Yer kürəsinin yaxınlığından həmçinin 2021 CN3 asteroidi keçəcək. Onun diametri azdır, ancaq planetmizdən daha yaxın məsafədən uçacaq.

Növbəti 3 gündə Yer kürəsinin yaxınlığından növbəti həmçinin daha üç asteroid keçəcək. Onlardan ən böyüyü 2021 EB-dir. Onun diametri 43 metrə malikdir və planetimizdən 2,7 milyon kilometr məsafədə keçəcək.

# Sahildə sklet qalıqları tapılıb

## Bu, 10 il əvvəl zəlzələ nəticəsində itkin düşən qadın cəsədi olub



**Yaponiyada 10 il əvvəl baş verən zəlzələdə itkin düşən şəxsin cəsədi tapılıb.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, fevralın 17-də Miyaqi əyalətinin şimal-şərq sahilində qadına məxsus olan sklet qalıqları aşkar edilib. DNT analizi və məhkəmə ekspertizası zamanı qalıqların 2011-ci ilin martında itkin düşmüş Okuyama Natsuoya məxsus olduğu təsdiqlənib.

*Qeyd edək ki, o zaman 61 yaşında olan Okuyama evdən işə gedərkən zəlzələ və daha sonra sunami baş verib. Həmin zəlzələ zamanı ən çox Miyaqi, Fukusima və İvate vilayətləri təsirlənib. Bu hadisədə təxminən 18 mindən çox insanın həyatını itirdiyi güman edilir.*

**Aynurə**

# Ölüm səbəbi açıqlanmadı

## Hollivud ulduzu 90 yaşında dünyasını dəyişib



**Hollivud ulduzu Coan Ueldon vəfat edib.**

Axşam.az xəbər verir ki, bu barədə aktrisanın yaxınları məlumat verib.

Ölüm səbəbi açıqlanmayan aktrisa 90 yaşında dünyasını dəyişib.

*Qeyd edək ki, Coan Ueldon həm də opera müğənnisi idi. Onun ən yadda qalan obrazı isə nəhəng qarışqaların hücumundan bəhs edən "Onlar" filmindəki rolu olub.*

# Tatlısəsin toyu pandemiyaya görə təxirə düşdü

## "Çünki bu şad günümüzdə bizi sevən hər kəsin yanımızda olmağını istəyirik"



**Müğənni İbrahim Tatlısesin oğlu İdonun nişanlısı Yasemin Şefkatli ticarət mərkəzlərindən birindən çıxarkən görüntülənib.**

Axşam.az Türkiyə KİV-nə istinadən bildirir ki, jurnalistləri görən Tatlısesin gəlini onlarla ayaqüstü söhbət edib.

Yasemin yaxın günlərdə keçirilməsi planlaşdırılan toyunun təxirə düşdüyünü bildirib:

"Pandemiya səbəbi ilə toy mərasimini təxirə salmalı olduq. Çünki bu şad günümüzdə bizi sevən hər kəsin yanımızda olmağını istəyirik".





# Elektrik enerjisi pulsuz olan binalar tikilir

## Bu cür evlərdə külək və günəş enerjisindən maksimal istifadə edən xüsusi avadanlıq quraşdırılıb



**Finlandiyada sakinlər üçün elektrik enerjisi havayı olan binaların tikintisinə başlanılıb. Bu cür evlərdə külək və günəş enerjisindən maksimal istifadə edən xüsusi avadanlıq quraşdırılıb ki, nəticədə elektrik və istilik sakinlərə pulsuz başa gəlir.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, konseptual layihə rentabelli olduğundan Finlandiyada enerjidən asılılığı olmayan binaların inşasına maraq artmaqdadır. İlk belə ev Helsinkinin Aalto Universitetinin Arxitektura fakültəsinin tələbələri tərəfindən layihələndirilib. Arxitektorların qarşısında duran əsas məsələlərdən biri də soyuq şimal şəraitində istilik itkisinin minimuma endirilməsi olduğundan, layihə zamanı əsas diqqət binanın xarici fasadına yönəldilib. Bu məqsədlə yüksək sıxlığa malik istilik izolyasiya edən elementlərdən istifadə olunub.



# Dəqiq xəbərdir

## Pandemiya 2022-ci ilin əvvəlində bitəcək





**"Düşünürəm ki, 2021-ci il növbəti COVID-19 ili olacaq".**

TASS xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosunun direktoru Hans Klüge "Die Welt" qəzetində cümə günü dərc olunan müsahibəsində deyib. Onun sözlərinə görə, indi hadisələri daha yaxşı proqnozlaşdırıb idarə etmək mümkündür: **"2020-ci ildə həm səhiyyə, həm də siyasət sferasında yalnız qeyri-müəyyənlik var idi. Bir il sonra daha çox şey bilirik, alətlərimiz, diaqnostika proqramlarımız, peyvəndlərimiz var".**

H.Klüge vurğulayıb ki, 2022-ci ilin əvvəllərində pandemiyanın bitəcəyini düşünür, ancaq bu, virusun itib gedəcəyi demək deyil.

**ÜST rəsmisi peyvənd məsələsində səbrli olmağa çağırıb:** "Başlanğıcda həmişə tələb təklifi üstələyir. Bütün planet sakinlərini bir anda peyvənd eləmək olmaz".

H.Klüge ÜST-nin tövsiyəsi olmasa da, Avropada vətəndaşların yayda peyvənd pasportları alacağının, çox güman, qaçılmaz olduğunu söyləyib. Bununla belə, o, bunun qeyri-bərabərliyi artıracağını vurğulayıb.



# 2 milyon dollar qiyməti var

## Peris Hilton nişan üzüyünü göstərib

**Xəbər verdiyimiz kimi, "Hilton" otellər şəbəkəsinin varisi, müğənni-dicey Peris Hilton iş adamı sevgilisi Karter Reumla fevralda nişanlanıb.**

Axşam.az xəbər verir ki, sənətçi "During an On Air" verilişində Karterin ona tropik adada verdiyi nişan üzüyü göstərib. Peris ziynət əşyasının 2 milyon dollara alındığını bildirib. 15 brilyantdan qaşla bəzədilən "The Paris" adlı üzüyün içində isə sapfirdən müğənninin baş hərfi yazılıb.

*Qeyd edək ki, cütlük 1 ildir münasibətdədir.*